QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 203 (5923) **2 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Dövlət başçısından məmurlara növbəti xəbərdarlıq

## *Prezident İlham Əliyev: "Gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır"*



Səh 2

3

**Boykot olunmuşların iflası**



4

**Siyavuş Novruzov: "Onların məqsədi sırf iğtişaş törətməkdir"**



8

**FED-in geri addımı Azərbaycana təsir edəcəkmi?**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

2 noyabr 2019-cu il

# Dövlət başçısından məmurlara növbəti xəbərdarlıq

## Prezident İlham Əliyev: "Gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır"

***Bəli, bu, həqiqətən də, belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini və gerçəkliyə adekvat olduğunu göstərmişdir.***



Bu illər ərzində, insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır.

Ölkə Prezidenti İlham Əliyev hakimiyyətdə olduğu son 16 il müddətində, daima xalqla birbaşa təmasda olub. İstər xarici siyasətlə bağlı fəaliyyətdə, istərsə də daxili idarəetmədə Prezident İlham Əliyev sadə vətəndaşlara arxalanır: "Mən bütün azərbaycanlıların prezidentiyəm" şüarını gerçəyə çevirir.

Bütün bunlar, bir daha sübut edir ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır və keçirilən müşavirələrdə də məmurları xalqla bir olmağı, xalqın dərd-səri ilə şərik olmağı tələb edir. Məmurlar da bu tələbə öz işləri ilə cavab verməlidir. Çünki Prezident İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub.

### "Bütün xoşagəlməz hallara son qoyulmalıdır, rüşvətxorluq, korrupsiya tamamilə yığışdırılmalıdır"

Prezident İlham Əliyev Yevlax və Xaçmaz rayonuna yeni təyin etdiyi icra başçılarını qəbul edərkən onları xalqa xidmət etməyi, bütün xoşagəlməz hallara son qoymağı tələb edib: "Siz vətəndaşlarla daim ünsiyyət əsnasında rayonun problemlərini və vətəndaşları narahat edən məsələləri daha dərindən öyrənib, adekvat tədbirlər görməlisiniz. Bütün xoşagəlməz hallara son qoyulmalıdır, rüşvətxorluq, korrupsiya tamamilə yığışdırılmalıdır. Mən sizə şəxsən bu göstərişi verirəm. Əgər eşitsəm-bilsəm ki, əyri yola gedirsiniz, onda siz çox ciddi cəzalandırılacaqsınız. Bunu bəri başdan bilin və bütün başqa yerli icra orqanlarının nümayəndələri, rəhbərləri məni yaxşı eşitsinlər".

Dövlət başçısı dəfələrlə Azərbaycanda korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizə aparılması tələbi ilə çıxış edərək bildirib ki, bu, dövlətin prioritet sahəsidir: "Korrupsiyaya, rüşvətxorluğa qarşı Azərbaycanda amansız mübarizə aparılmalıdır. Bu yara bizim inkişafımızı ləngidir və gələcəyə olan planlarımızı sarsıda bilər. Düzdür, bu bəla hər bir ölkədə var. Amma əsas məsələ ondadır ki, rəhbərlik bu məsələyə necə münasibət göstərir. Azərbaycanda şəffaflıq və dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır. Ona görə bu məsələ ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə çox ciddi fəaliyyət göstərməlisiniz, tamamilə şəffaf vəziyyət yaradılmalıdır".

### Tikilmiş mərkəzlərin görüntü naminə fəaliyyət göstərmələri dözülməzdir, buna vəsait xərclənib

Prezident İlham Əliyev çıxışı zamanı rayonda böyük vəsaitlər sayəsində tikilən bir çox obyektlərin istifadəsinə biganə yanaşıldığını da bildirib: "Rayonların abadlıq-quruculuq işlərinə diqqət yetirilməlidir, mövcud obyektlərin işlək vəziyyətdə olması da çox önəmlidir. Mənə verilən məlumatlara görə, bir neçə rayonda mənim iştirakımla açılmış Gənclər Mərkəzi indi bağlıdır, qapıya qıfıl vurulub və sadəcə olaraq, görüntü naminə fəaliyyət göstərir. Bu, dözülməzdir, buna vəsait xərclənib. Gənclər mərkəzlərində gənclər öz asudə vaxtlarını keçirməlidirlər, orada maraqlı tədbirlər, intellektual oyunlar, vətənpərvərliklə bağlı tədbirlər təşkil olunmalıdır. Bu mərkəzlər tikilir, bir çox hallarda, istifadə olunmur. Heydər Əliyev mərkəzləri demək olar ki, hər bir rayon mərkəzində vardır. Nədir bu mərkəzlərin məqsədi? Odur ki, o mərkəzlərə vətəndaşlar gəlib, öz asudə vaxtlarını keçirsinlər, o mərkəzlərdə dərnəklər fəaliyyət göstərməlidir, o mərkəzlərdə sərgilər keçirilməlidir. O mərkəzlər rayonun mədəni həyatının ayrılmaz hissəsi olmalıdır. Ancaq mənə verilən məlumata görə, bəzi hallarda, açılışdan sonra yenə də qapıları qıfıllanır və faktiki olaraq, bu mərkəzlər işləmir. Siz bu məsələ ilə çox ciddi məşğul olun. Yəni rayonlarda həyat daha da dinamik xarakter almalıdır".

### "Bəzi icra başçıları saxta adamların adlarını siyahıya yazdırırdılar, onlara düşən vəsaiti mənimsəyirdilər və beləliklə, talançılıqla məşğul idilər. Onların artıq cəzası verilibdir"

Dövlət başçıs bəzi icra başçılarının saxtakarlığı ilə bağlı məsələyə də toxunaraq bildirib ki, bu adamlar artıq cəzalarını alıblar: "Rayon yerində elə şərait yaradılmalıdır ki, oradakı vətəndaşlar elə orada yaşasınlar. İş yerləri olmalıdır. İndi dövlət xətti ilə bu proqram icra olunur, o cümlədən, ödənişli ictimai işlər yaradılıbdır. Bu il 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılıb. Ancaq əvvəlki mənzərə necə idi? Bəzi icra başçıları saxta adamların adlarını siyahıya yazdırırdılar, onlara düşən vəsaiti mənimsəyirdilər və beləliklə, talançılıqla məşğul idilər. Onların artıq cəzası verilibdir. Ona görə bu sahədə də tam şəffaflıq təmin edilməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə siz ən kasıb təbəqəni bu işlərə cəlb etməlisiniz ki, onlar işsiz qalmasın. Mən demək istəyirəm ki, bu ödənişli iş yerlərinin böyük əksəriyyəti bizə lazım deyil. Ancaq biz bunu ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun və rayonlarda iş axtaran işlə təmin olunsun. Yenə də demək istəyirəm ki, bu işlərdə artıq 40 minə yaxın vətəndaş işləyir və eyni zamanda, onların arasında bağbanlar, binaları təmir edənlər də var. O da bizə lazımdır. Ona görə bu sahəyə çox ciddi diqqət göstərilməlidir və elə etməlisiniz ki, vətəndaşlar sizin fəaliyyətinizdən razı qalsınlar.

### "Mən media nümayəndələrinə də dəfələrlə müraciət etmişəm, demişəm ki, siz mənim köməkçilərimsiniz"

Dövlət başçısı, həmçinin, bəzi hallarda, dözülməz vəziyyətlə bağlı məlumatlar haqda mediadan xəbər tutduğunu da söyləyib: "Mən media nümayəndələrinə də dəfələrlə müraciət etmişəm, demişəm ki, siz mənim köməkçilərimsiniz. Bəzi hallarda, mən dözülməz vəziyyətlə bağlı mediadan xəbər tuturam. Bax, son hadisəni demək istəyirəm ki, Şamaxı rayonunda zəlzələ olub, oraya böyük vəsait ayrılıb. Mən oraya getmişəm, yeni tikilmiş evlərin açarlarını vətəndaşlara təqdim etmişəm. Ancaq o günləri televizorda baxıram ki, məktəb binasının yarısı uçubdur, çatlar var, uşaqlar qorxudan orada otura bilmirlər. Bəs yaxşı, bunun üstündən səkkiz ay keçibdir, bunu etmək mümkün deyilmi? Vəsait ayrılıb, göstəriş verilib, bir çox evlər tikilib, bu məktəb belə yararsız vəziyyətdə ola-ola, bununla necə barışmaq olar? İndi əgər mediada, televizorda bu reportaj getməsəydi, mən bilməyəcəkdim. Mən bilən kimi, dərhal göstəriş verdim. İndi orada işlər başlayacaq və o məktəb binası ya sökülüb yenidən tikiləcək, ya da ki, əsaslı təmir olunacaq. Ona görə ictimai nəzarət olmalıdır. Siz də bundan qorxmamalısınız, əksinə, ictimaiyyət sizə dəstək verməlidir".

### "Gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır"

Azərbaycan Prezidenti İlham Əliyev son günlər ölkədə aparılan gəncləşmə siyasəti ilə bağlı məsələni kampaniya xarakterli hesab etdiklərinə də toxunaraq bildirib ki, təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır: "İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik. Ancaq onu da bildirməliyəm ki, bu, kampaniya xarakteri almamalıdır. Çünki mənə məlumat gəlir ki, bəziləri bunu kampaniyaya çevirmək istəyirlər və sınanmış, təcrübəli, bir qədər yaşlı insanlara qarşı bu kampaniyanı təşkil etmək istəyirlər. Mən buna yol verməyəcəyəm. Mən bilirəm kim nəyə qadirdir, kimin hansı xidmətləri olub, əvvəlki dövrdə və bu gün. Ona görə Azərbaycanda təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. Bunun sintezi sayəsində biz gözəl nəticələrə çata bilərik. Bir də ki, yaşlı nəsil öz təcrübəsini bölüşməlidir. Ona görə hər kəs bilsin ki, mən bu kampaniyaya yol verə bilmərəm. Müəyyən dərəcədə xidmət göstərmiş insanlar, əlbəttə ki, dövlət tərəfindən də qiymətləndirilir və biz kampaniyaya yol verməyəcəyik. Eyni zamanda, təbii ki, gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır".

Bəli, bu, həqiqətən də, belədir! Bu gün Cənab Prezidentin hər zaman olduğu kimi, sözü ilə əməli tam üst-üstə düşür. Ölkə Parezidenti İlham Əliyev Cənablarının dediyi kimi: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə, haqlı olaraq fəxr edə bilər".

***RƏFİQƏ KAMALQIZI***

## Rəsmi xronika

Prezident İlham Əliyev Samir Nuriyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Samir Rafiq oğlu Nuriyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri təyin edilir.

* * *

Bundan əvvəlki sərəncamla S.Nuriyev Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsindən azad edilib.

* * *

Prezident İlham Əliyev "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1687-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 fevral tarixli 1993 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 avqust tarixli 1638 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

# Moskvada “Nəsimi poeziyası - insana himn: Şərqin və Qərbin mənəvi-mədəni dəyərlərinin sintezi” mövzusunda konfrans keçirilib








Dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi çərçivəsində Rusiya Elmlər Akademiyasında “Nəsimi poeziyası - insana himn: Şərqin və Qərbin mənəvi-mədəni dəyərlərinin sintezi” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Konfransın açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Heydər Əliyev Fondunun, Rusiya Fəlsəfə Cəmiyyətinin və Azərbaycanın Rusiyadakı səfirliyinin təşkilatçılığı ilə keçirilən konfransda “Müasir fəlsəfə, Nəsiminin mədəni-tarixi metodologiyaları və mənəvi irsi”, “Nəsimi ideyaları və hürufilik: anlayış məsələləri və müasir interpretasiya”, “Nəsimi yaradıcılığında humanizm problemi”, “Nəsimi poeziyasında insan və mədəni dəyərlərin təsdiqi”, “Nəsimi estetikasında mənəvi kamillik” və digər mövzularda məruzələr dinlənilib.

Konfransın açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiya Fəlsəfə İnstitutunun direktoru Andrey Smirnov, Rusiya Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun elmi rəhbəri Abdulsalam Hüseynov, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə və başqaları çıxış ediblər.

Konfransın işində müxtəlif ölkələrdən, o cümlədən Rusiya, Azərbaycan, ABŞ, İran, Türkiyə, Finlandiya, Özbəkistan alimləri iştirak ediblər.

Rusiya Elmlər Akademiyası Fəlsəfə İnstitutunun elmi rəhbəri, akademik Abdulsalam Hüseynov bildirib ki, Nəsimi dahi şair, humanizmin bünövrəsini qoyanlardan biridir. O deyib: “Nəsiminin “Sığmazam” qəzəli insan himnidir. XIV əsrdə insanı belə qüvvə, dərinlik və ardıcıllıqla vəsf etmək böyük cəsarət tələb edirdi. Bu gün Nəsimi ideyaları olduqca aktualdır”.

# Boykot olunmuşların iflası



Əli Həsənov,
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi,
tarix elmləri doktoru, professor

Bildiyiniz kimi, özünü Milli Şura adlandıran bir qrup radikal düşüncəli insanın toplaşdığı qurum noyabrın 2-də Bakı şəhərinin mərkəzində yenidən qanunsuz mitinq keçirmək fikrindən daşındıqlarını bəyan edib. Qurumun funksionerləri ard-arda açıqlama verərək niyə mitinq etmədikləri (əslində, edə bilmədikləri) barədə müxtəlif versiyalar səsləndirirlər: “Guya ki, Azərbaycan hakimiyyəti müəyyən təxribatlara əl atacaqmış, hansısa cinsi azlıqların mitinq meydanına gətirilmə ehtimalı varmiş, Gəncə hadisələri təkrarlana bilərmiş, radikal islamçı qruplar məqsədli şəkildə ön plana çıxarıla bilərmiş” və s. Anadolu türklərində gözəl bir deyim var: “Üzrü qəbahətindən betər olanlar”.

Azərbaycan dövlətinin ünvanına və onu təmsil edən iqtidarın əleyhinə uzun müddətdir həqiqətə uyğun olmayan “ciddi fakt”lar uydururaq, xarici aləmdə xalqımızı aşağılayan, daxildəsə vətəndaşları riyakarcasına aldadaraq qanunsuz aksiyalara səsləyən bu antimilli Şura, indi də eyni riyakarlıqla mitinqi niyə təxirə salmaları haqqında qondarma səbəblər uydurmağa çalışır. Çox ümid edirəm ki, Milli Şuranın hansısa bir funksioneri özündə cəsarət tapıb mitinqin baş tutmamasının əsl səbəbini - radikal müxalifətin Azərbaycan xalqı tərəfindən tam boykot edildiyini açıq etiraf edəcək. Zamanında etiraf etmək insanı alçaltmaz, əksinə, ucaldar deyib müdriklərimiz...

2 noyabr ətrafında cərəyan edən hadisələr hazırda bir sual ortaya çıxarıb: görəsən, Azərbaycanda hazırda hər hansı mitinq, yaxud etiraz aksiyası keçirmək, xüsusən də radikal müxalifətin qeyri-sağlam məqsədlər üçün israrla təşkil etmək istədiyi qeyri-qanuni mitinqlər cəmiyyətin tələbatından doğur, yoxsa təşkilatçıların siyasi mövcudluğunun göstəricisidir, xarici anti-Azərbaycan qüvvələrlə onların əlaqələri üçün vasitədir və şəxsi maliyyə ehtiyaclarının ödənməsi mənbəyidir? Üzümü radikal müxalifətin təmsil olunduğu Milli Şura və AXCP rəhbərlərinin qeyri-real vədlərlə aldadaraq, öz şəxsi ambisiyalarını gerçəkləşdirmək üçün irəli verdiyi azsaylı Azərbaycan vətəndaşlarına tuturam: əziz vətəndaşlar, məgər sizə aydın deyilmi ki, AXCP və Milli Şuraya rəhbərlik edən bu şəxslər öz çirkin ambisiyalıarını reallaşdırmaq üçün sizi fəlakətə sürükləyir? Məgər siz fəqrində deyilmisiniz ki, bir ayağı burda, bir ayağı xaricdəki anti-Azərbaycan mərkəzlərinin qapısında olan, xarici ölkələrin səfirliklərində özlərinə düşərgə salan bu insanlar sizdən öz “qarşılıqlı-faydalı” ittifaqları naminə vasitə kimi istifadə edirlər? Üzümü bir daha bu anti-milli ünsürlərin şirin vədlərinə uyan, xaricdəki məkrli mənfəət qruplarının təsirinə düşən, öz dövləti ilə zor dilində danışmaq xülyasına qapılan, təcrübəsizliyi, məhdud dünyagörüşü səbəbindən reallıq duyğusunu itirən azsaylı vətəndaşlarımıza tutaraq bildirmək istəyirəm ki, əziz dostlar, sizin bütün problemləriniz - bizim, Azərbaycan dövlətini təmsil edən mövcud iqtidarın problemləridir. Hörmətli cənab Prezident İlham Əliyev xalqımızın sosial-iqtisadi vəziyyətinin, maddi rifah halının daim yüksəlməsi, Qarabağ probleminin ədalətli həlli, ölkəmizin inkişafı, tərəqqisi, müasirləşməsi, dünyada söz sahibi olması üçün gecəli-gündüzlü yorulmadan çalışır. O öz çıxışlarında vətəndaşları dəfələrlə ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında fəal olmağa səsləyib. Cənab Prezidentin bütün çıxışlarında “vətəndaş fəallığı” qırmızı xətlə keçir. Azərbaycan dövləti və hakimiyyəti vətəndaşlara heç bir siyasi ayrıseçkilik qoymur. Bizim üçün iqtidar, müxalifət, bitərəf ayrımı yoxdur. Odur ki, gəlin problemlərimizi birlikdə, qanunlarımıza hörmətlə yanaşaraq, danışaraq, məsləhətləşərək, dilaoqla həll edək. Biz hər bir sosial qrupu, ayrı-ayrı vətəndaşları dinləməyə, məsələlərin birgə həllini, çıxış yollarını aramağa hazırıq. İflasa uğramış radikal müxalifət xaricdən qrantlar almaq, öz mövcudluğunu davam etdirmək üçün sadə insanlardan, xüsusilə də, gənclərdən sipər kimi istifadə edir. Odur ki, bu mitinqlər də radikal müxalifətin cılız merkantil maraqlarına xidmət edir. Kim bu ölkədə dəyişiklik, yenilik, islahat, firavanlıq, öz sosial problemlərinin həllini istəyirsə, bu istəyin tək bir ünvanı varsa, o da ölkə başçısı və onun hakimiyyət komandasıdır.

Bir də üzümü öz ambisiyalarına görə Azərbaycan vətəndaşlarını anti-dövlət fəaliyyətinə sövq edən radikal müxalifət dairələrinə tuturam: “İnsanlar yanlış yoldan, qanunsuz hərəkətlərdən, qarşıdurmadan, öz xalqı, ölkəsi, dövləti əleyhinə işlərdən, cəmiyyətdəki dincliyi, asasyişi, sabitliyi pozmaq niyyətlərindən, nə qədər tez əl çəksə, bir o qədər yaxşıdır. Milli Şuranın rəhbərliyində və tərkibində olanlar bilməlidirlər ki, belə radikal hərəkətlərlə Azərbaycanda heç nəyə nail olmaq, ölkəni ötən yüzilin 90-cı illərinin əvvəlinə qaytarmaq, vətəndaşlarımızı, yeni nəsil gənclərimizi yanlış yola sürükləmək artıq mümkün deyil.

# İsrailin Bakıdakı səfirliyi fəaliyyətini bərpa edib



İsrailin Azərbaycandakı səfirliyi iki gün davam edən etiraz aksiyasından sonra fəaliyyətini bərpa edib. Diplomatik missiyadan AZƏRTAC-a bildirilib ki, İsrailin Bakıdakı səfirliyi, o cümlədən dünyanın digər ölkələrindəki diplomatik nümayəndəlikləri fəaliyyətini əvvəlki qaydada davam etdirir. İsrail Xarici İşlər Nazirliyinin əməkdaşları ilə ölkənin Maliyyə Nazirliyi arasında danışıqlar davam edir.

Xatırladaq ki, İsrailin bütün dünyada fəaliyyət göstərən diplomatik missiyalarının oktyabrın 30-31-də işləməməsinə səbəb İsrail Maliyyə Nazirliyinin 2019-cu il iyulun 21-də qurumun baş direktoru tərəfindən imzalanmış razılaşmaları pozması və son onilliklər ərzində qüvvədə olan protokolu dəyişdirən birtərəfli prosedur tətbiq etməsi ilə əlaqədar olub. İki gün ərzində diplomatik missiyalar işləməyib, heç bir konsulluq xidmətləri göstərilməyib.

# Siyavuş Novruzov: “Onların məqsədi sırf iğtişaş törətməkdir”

*Yeni Azərbaycan Partiyası (YAP) İcra Katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzov “Milli Şura” adlanan qurumun noyabrın 2-də Bakı şəhərinin mərkəzində təyin etdiyi qanunsuz mitinqdən imtina etməsinə münasibət bildirib.*



YAP İcra katibinin müavini Siyavuş Novruzov SİA-ya eksklüziv açıqlamasında deyib ki, mitinqdən imtina edilməsinə əsas səbəb elektoratlarının olmaması ilə bağlı idi: “Onlar hesabladılar ki, bu addımı atmaq mümkün deyil, xalq tərəfindən heç bir dəstəyə malik deyillər və ictimai qınaq çox böyükdür. Sən mitinqə nə qədər insan yığsan da belə internetdə, sosial şəbəkələrdə, facebookda, o cümlədən internet televiziyalarında gedən məlumatları oxuyan daha çoxdur, nəinki ora gedənlər. Əgər səni maraqlandıran hansısa islahatdırsa, Dağlıq Qarabağ münaqişəsidirsə və yaxud da başqa məsələlərdisə bu fikirləri sadə şəkildə çatdır və insanlar da buna qulaq assınlar. Razılaşan razılaşıb “like” etsin, razılaşmayan isə öz rəyini və fikrini yazsın. Bir sözlə, bu məsələlərdə qarşılıqlı diskussiya olsun. Bu, o halda baş verir ki, internetə qadağa qoyurlar və heç bir sosial şəbəkə işləmir. Onların məqsədi sırf iğtişaş törətməkdir. Qabaqcadan öyrədilmiş insanlar, qadınlar var idi və onlar polisləri özlərinin aqressiv hərəkətlərinə adekvat addım atmağa təhrik etmək istəyirdilər ki, polislər qeyri-qanuni hərəkətlərə yol versin və yaxud da onları özlərindən çıxarsın. Lakin Azərbaycan polisi çox səbr və təmkinlə bu məsələləri öz qaydasına qoydu”.

S.Novruzov digər maraqlı məqamlara da toxunub: “Digər tərəfdən müxalifət indi bildirir ki, ora dini qruplaşmalar gəlmişdi. Mən mütəmadi olaraq onların başqa-başqa yerlərdə keçirdikləri mitinqlərini izləmişəm. Mitinqlərində hər zaman İranın, İslamın bayraqları dalğalanırdı və dindarlar iştirak edirdi. Orada çıxış edərkən Cəmil Həsənli, Əli Kərimli və digərləri həmişə onları xüsusi salamlayırdılar. Hətta çıxış etdikləri zaman yanlarında həmişə din nümayəndələri də dayanırdı. Amma indi Əli Kərimli deyir ki, guya iqtidar mitinqə dini qruplaşmalar cəlb edərək iğtişaş yaratmaq istəyir. Beynəlxalq təşkilatların nümayəndələri də gördülər ki, bunlar heç bir şeyə qadir deyillər. Bu gün radikal müxalifət siyasi düşüncə ilə deyil, əksinə hava proqnozu ilə işləyir. Bu günlərdə Cəmil Həsənli Vaşinqtonda mətbuat konfransı keçirdi. Mən həmin görüntüləri izlədim. Mətbuat konfransına haradansa 2 erməni tapıb gətirmişdilər. Sevinc Osmanqızı da orada iştirak edirdi. Əgər belə idisə Sevinc Osmanqızı Amerikadan Cəmil Həsənli də buradan danışardı. Onsuz da bütün günü danışmaqla məşğuldurlar. Axı bunu şou kimi sərgiləməyə, görüntü yaratmağa nə ehtiyac var idi? Təsəvvür edin ki, Amerika Konqresi türklərə qarşı qondarma “erməni soyqırımı”nı tanımaq haqqında qətnamə qəbul etdiyi günün səhərisi özünü “tarixçi”, “alim” hesab edən və tarixdən məlumatı olmayan Cəmil Həsənli bir kəlmə də olsun “erməni soyqırımı” haqqında fikir söyləmədi. Çünki onun yanında oturanlar erməni idi və dərhal verdikləri vəsaiti kəsəcəkdilər”.

**Ceyhun Rasimoğlu**

# Samir Nuriyev Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri təyin edilib



Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri təyin edilib. AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Samir Nuriyev 1975-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Texniki Universitetini və ABŞ-ın Dyuk Universitetini bitirib. Beynəlxalq inkişaf siyasəti üzrə magistrdir.

1996-2003-cü illərdə müxtəlif özəl şirkətlərdə və beynəlxalq təşkilatlarda iqtisadçı, marketinq üzrə menecer və layihə koordinatoru işləyib. 2000-2001-ci illərdə BMT İnkişaf Proqramının Azərbaycan ofisində biznes-məsləhətçi vəzifəsində çalışıb, 2006-cı ildə İqtisadi İnkişaf Nazirliyində sahibkarlığın inkişafı departamentinin direktoru təyin edilib.2009-cu ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəis müavini, 2013-cü ildə isə həmin İdarənin rəisi vəzifəsinə təyin olunub. 2016-cı il aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru, 2018-ci il fevralın 14-də Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri, həmin il aprelin 21-də Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri təyin edilib.

## Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il noyabrın 1-dək 104 milyon 234 min 547,81 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

# YAP Gənclər Birliyinin təşəbbüsü ilə YAP İcra Katibliyində “Sosial şəbəkə və milli mənəvi dəyərlərimiz” mövzusunda tədbir keçirilib

*Noyabrın 1-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşəbbüsü ilə “Sosial şəbəkə və milli mənəvi dəyərlərimiz” mövzusunda tədbir keçirilib.*

Tədbirdə Milli Məclisin deputatları, ölkəmizdə fəaliyyət göstərən gənclər təşkilatlarının rəhbərləri, fəal gənclər iştirak ediblər.

Çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, bu gün sosial şəbəkələr həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Onun sözlərinə görə, bəzi dairələr sosial şəbəkələrdən çirkin məqsədlər üçün istifadə edir, ekstremist çağırışlar edirlər. S.Orucovun fikrincə, həmin dairələrin məqsədi cəmiyyətdə bölücülük yaratmaqdır. Bunlar əsasən xaricdə mühacir adı altında yaşayanlardır. Lakin onlar azlıq təşkil edirlər. Bu gün Avropada və dünyanın digər ölkələrində xeyli sayda azərbaycanlı yaşayır. Onlar Azərbaycanı xaricdə uğurla təmsil edir, ölkəmizlə bağlı həqiqətləri fəal təbliğ edirlər. Qeyd olunub ki, təhqir və söyüş üsulunu siyasi mübarizə yolu kimi seçən müəyyən insanlar yaşadıqları ölkələrdən müxtəlif neqativ, təxribatçı çağırışlar səsləndirirlər. S.Orucov deyib ki, bütün bunlar milli mənəvi dəyərlərimizə ziddir. Ona görə də, gənclərimiz belə ünsürlərə qarşı mübarizə aparmalıdır. “Prezident İlham Əliyev də hər zaman vurğulayır ki, gənclərimiz sağlam ruhda böyüməli, milli mənəvi dəyərlərimizi qorumalıdır. Biz dövlətimizin başçısının dəyərli tövsiyələrinə daim əməl etməli, Onun ətrafında sıx birləşməliyik”-deyə, YAP Gənclər Birliyinin sədri söyləyib.

Milli Məclisin Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov çıxışında bildirib ki, müasir dövrdə texnologiyalar sürətlə inkişaf edir. Virtual məkanın bütün insanlara təsir etdiyini deyən Ş.İsmayılovun sözlərinə görə, bu məkanda mənəvi dəyərlərin arxa plana keçirilməsi təhlükəlidir. Millət vəkili qeyd edib ki, qloballaşma milli mənəvi dəyərlərə mənfi təsir göstərir. Amma müasir gəncliyimiz buna yol verməməlidir.



Ölkəmizin dünyada sabitlik adası olduğunu deyən Milli Məclisin deputatı Cavid Osmanov isə bildirib ki, xaricdə yaşayan bəzi azərbaycanlılar tərəfindən sosial şəbəkələrdə qarayaxma kampaniyasının aparılması Azərbaycandakı ictimai-siyasi sabitliyin pozulması məqsədinə xidmət edir. Belə insanlar hətta milli mentalitetimizin qırmızı cizgisini keçən təhqir və söyüşlərdən istifadə edirlər. Ona görə də cəmiyyətimizin hər bir üzvü, o cümlədən gənclərimiz belə hallara qarşı ortaq mövqedən çıxış edərək, güclü ictimai qınaq formalaşdırmalıdırlar. Bu gün İKT-nin çox sürətlə inkişaf etdiyini deyən millət vəkilinin fikrincə, bu amil milli mənəvi dəyərlərimizə zərər vurmamalıdır. C.Osmanov deyib ki, Azərbaycan xalqı zəngin dəyərlərə sahibdir. Sosial şəbəkələrdə aparılan çirkin kampaniyalar həm milli, həm də İslam dəyərlərini gözdən salmağa yönəlib. Gənclərimiz belə hallara qarşı fəal mübarizə aparmalıdır.



Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Ceyhun Əliyev çıxış edərək bildirib ki, milli və mənəvi dəyərlərimiz bir birilə sıx bağlıdır. Onun sözlərinə görə, sosial şəbəkələrdə baş verən xoşagəlməz hallar bu dəyərlərimizə tamamilə ziddir. C.Əliyev qeyd edib ki, qloballaşma şəraitində milli mənliyimizi, kimliyimizi daim qorumalıyıq.

Tədbirdə daha sonra İlahiyyat İnstitutunun prorektoru Aqil Şirinov, “İrəli” İctimai Birliyinin sədri Mirhəsən Seyidov, Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, ASAN könüllülərinin rəhbəri Səbinə Cabbarova, YAP Nizami rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Ramil Vəlibəyov və digərləri çıxış edərək sosial şəbəkələrdə milli mənəvi dəyərlərimizə zidd olan kampaniyaların aparılmasının yolverilməz olduğunu qeyd ediblər.

# YAP İcra Katibliyində ETSN ilə birgə tədbir keçirilib








Dünən Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, YAP Gənclər Birliyinin fəallarının iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə bir gün ərzində 650 min ağacın əkilməsi ilə bağlı hazırlıq işləri müzakirə olunub.

Çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsünün xalqımız tərəfindən yüksək dəyərləndirildiyini bildirib. S.Novruzov qeyd edib ki, YAP Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə fəaliyyət proqramı əsasında müxtəlif layihələr həyata keçirir. Böyük mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə keçiriləcək ağacəkmə kampaniyasında da hər iki təşkilat əməkdaşlıq edəcək.

Yeni Azərbaycan Partiyasının hər il Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə ağacəkmə aksiyası keçirdiyini deyən S.Novruzov partiyamızın mütəmadi olaraq müxtəlif sosial, iqtisadi və humanitar xarakterli layihələr reallaşdırdığını söyləyib. O, həmçinin Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə keçirilən "700 min ağac əkək!" kampaniyasının da bütün respublika ərazisində uğurla baş tutduğunu xatırladıb.

S.Novruzov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir gün ərzində 650 min ağacın əkilməsi aksiyasında da partiya üzvlərinin fəal iştirak edəcəyini diqqətə çatdırıb. Onun sözlərinə görə, həmin ağacların əkilməsindən sonra onlara qulluğun göstərilməsi partiyanın diqqətində olacaq. Və bütün bu işlərdə YAP-ın gənc fəalları yaxından iştirak edəcək.

Tədbirdə çıxış edən ekologiya və təbii sərvətlər nazirinin müavini, YAP Siyasi Şurasının üzvü Firdovsi Əliyev bildirib ki, artıq bir gündə 650 min ağacın əkilməsi üçün ərazilər müəyyənləşib. Bu prosesə rəmzi olaraq Şamaxı rayonundan başlanacaq.

F.Əliyev Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın daim xoşməramlı, xeyirxah təşəbbüslərlə çıxış etdiyini deyib və bu təşəbbüslərin cəmiyyətimiz tərəfindən rəğbətlə qarşılandığını söyləyib. Nazir müavini həmçinin, Yeni Azərbaycan Partiyasının da hər zaman ekologiya və ətraf mühitin qorunmasına töhfələr verdiyini diqqətə çatdırıb.

# ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı"na dair qətnaməsinin heç bir tarixi, siyasi və hüquqi əsası yoxdur



1915-ci ildə Türkiyə ərazisində ermənilərə qarşı heç bir soyqırımı olmayıb. Türkiyənin müharibəyə cəlb olunduğu həmin dövrdə ermənilər çoxsaylı silahlı dəstələr yaradaraq arxa cəbhədə üsyan qaldırıb, türk ordusuna qarşı hücumlar təşkil edib, ayrı-ayrı şəhər və qəsəbələrdə kütləvi qətllər törədərək əhaliyə qarşı qeyri-insani aksiyalar həyata keçiriblər. Təbii ki, türk ordusu da dinc əhalini müdafiə etmək, onları erməni vəhşiliklərindən qorumaq üçün lazımi tədbirlər görüb. Ermənilərin bu və ya digər ərazilərə köçürülməsi zamanı da heç bir soyqırımı baş verməyib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar söyləyib. O qeyd edib ki, son illərdə uydurma "erməni soyqırımı" iddialarının dünya gündəmində yer almasının səbəbkarları, sadəcə, Ermənistan və erməni lobbisi deyil, eyni zamanda, regionla bağlı imperialist maraqları olan güclərdir. O güclər ki, vaxtilə Anadoluya və Cənubi Qafqaza dair maraqlarını reallaşdırmaq üçün milli münaqişələrin alovlanmasına və kütləvi köçlərə səbəb olub, erməniləri Osmanlı Türkiyəsinə qarşı təşkilatlanmağa, silahlanmağa, terror və qətliamlar törətməyə təşviq ediblər. Bu səbəbdən ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" haqqında qəbul etdiyi 296 saylı qətnamə qərəzli, sifariş xarakterli və əsassızdır. Qətnamənin heç bir tarixi, siyasi və hüquqi əsası yoxdur, eləcə də Türkiyəyə qarşı uzun illərdir həyata keçirilən siyasi təzyiq vasitəsindən başqa bir şey deyil.

B.Dündar əlavə edib ki, ABŞ Konqresinin Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" ilə bağlı qəbul etdiyi qətnamə qərəzli və əsassızdır. Hiyləgər və məkrli ermənilərin və onların havadarlarının məqsədi beynəlxalq münasibətlərdəki gərginlikdən öz mənafeləri üçün istifadə etməkdir. Bu da onların iç üzünü bir daha açıb göstərir. Ermənistan və erməni lobbisi qəbul edilmiş qətnaməni tarixi qələbə kimi təqdim edir. Lakin baş verənlərin fonunda bu sənədin qəbul edilməsi əslində onu göstərir ki, 1915-ci ildə olduğu kimi, erməni məsələsi bu gün də dünya gücləri tərəfindən xarici siyasətdə alət kimi istifadə edilir.

Bilal Dündar bildirib ki, Azərbaycan dövləti hər zaman olduğu kimi, bu dəfə də qardaş ölkəyə dəstək nümayiş etdirərək ABŞ Konqresinin Nümayəndələr Palatasının ədalətsiz qərarına etiraz bildirdi. Bu, hər iki dövlətin çətin anlarda bir-birlərinə dəstək olduğunu göstərdi.

# "Yeni Müsavat" qəzetinin 30 illik yubileyi qeyd edilib



"Yeni Müsavat" qəzetinin 30 illik yubileyi Azərbaycan Mətbuat Şurasında qeyd edilib. Bu münasibətlə noyabrın 1-də Şuranın İdarə Heyəti üzvlərinin toplantısı keçirilib.

Mətbuat Şurasından AZƏRTAC-a verilən məlumata görə, tədbirdə çıxış edənlər "Yeni Müsavat" qəzetinin fəaliyyət göstərdiyi ötən 30 ilin həm ölkəmizin, həm də mediamızın tarixi baxımdan son dərəcə mühüm mərhələ olduğunu bildiriblər. Bu mərhələyə nəzər salınarkən görünür ki, yubilyar nəşrin müstəqillik baxışlarının carçısı olan ideoloji mərkəzdən peşəkar jurnalistika məktəbi statusunadək olan inkişafından danışmaq üçün kifayət qədər dolğun əsaslar var.

Vurğulanıb ki, yaradıcı potensialı və zəngin təcrübəsi olan "Yeni Müsavat" bu gün istər yayımı, istərsə də tirajı baxımından ön sırada dayanan kütləvi informasiya vasitələrindən biridir. Qəzetin hadisə və proseslərə münasibətindəki obyektivlik onun ictimai rəydəki başlıca populyarlıq təminatçısıdır. "Yeni Müsavat" həm də Azərbaycanda ciddi jurnalist nəslinin formalaşmasında müstəsna xidmətləri olan mətbuat orqanıdır.

## Ukraynanın nüfuzlu informasiya agentliyində Ermənistan hakimiyyətinin destruktiv siyasəti pislənilib

Cəmiyyətin radikal millətçi təbəqələri və diaspor tərəfindən dəstəklənən Ermənistan hakimiyyətinin destruktiv siyasəti Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə əngəl olur. AZƏRTAC xəbər verir ki, bu fikri "İnterfax-Ukrayna" agentliyinə geniş müsahibəsində Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev söyləyib (https://interfax.com.ua/news/interview/621870.html).

"Bütün bu illər ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bölgədə sülhə və təhlükəsizliyə ciddi təhdid olub və bu, davam edir. Münaqişə Cənubi Qafqaz ölkələrinin tam əməkdaşlığına mane olur", - deyə səfir əlavə edib.

# Naxçıvan Muxtar Respublikasında aqrar sahə uğurla inkişaf etdirilir



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur.***

### Ulu Öndərimizin təşəbbüsü ilə Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılıb

Ümummilli lider Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə Azərbaycan keçmiş İttifaqın aqrar əlavəsindən kənd təsərrüfatının kompleks inkişaf etdiyi qabaqcıl respublikalardan birinə çevrilmişdi. Həmin dövrdə ölkəmizdə kənd təsərrüfatının elmi əsaslarla inkişafı nəticəsində bu sahədə zəngin təcrübə formalaşmışdı. Təəssüf ki, müstəqilliyin ilk illərində ölkədə baş verən özbaşınalıq nəticəsində aqrar sahədə yaradılan bu infrastruktur da tamamilə dağıdılmışdı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən Ümummilli Lider isə kənd təsərrüfatının inkişafının vacibliyini daim ön plana çəkib, bununla bağlı mühüm qərarlar qəbul edib. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul olunub, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılıb, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşıb. 1993-2003-cü illərdə isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə kompleks tədbirlər görülüb, uğurlu islahatlar həyata keçirilib, qanunvericilik bazası yaradılıb.

Ulu Öndərin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün ölkəmizdə uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aqrar-sənaye kompleksinin inkişafını diqqət mərkəzində saxlayır, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində konkret tədbirlər görülür, dövlət proqramları qəbul olunur. Aparılan islahatlar bitkiçiliyin və heyvandarlığın, eləcə də emal sənayesinin inkişafına səbəb olub

Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatının inkişafı da daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada aqrar sahənin inkişafı istiqamətində aparılan islahatlar kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafına səbəb olub. Muxtar Respublikanın Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin məlumatında qeyd olunur ki, 2000-ci ildə muxtar respublikada torpaq islahatı başa çatdırılıb, 72 min 758 ailəyə 56 min 372 hektar torpaq sahəsi verilib. Bundan sonra kənd təsərrüfatının inkişafında əsaslı dönüş yaradılıb, bol məhsul istehsalının əsası qoyulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş dövlət proqramları muxtar respublikada aqrar sahənin inkişafına mühüm təkan verib, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə uğurlu nəticələr qazanılıb. Qəbul edilən dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən tədbirlər məhsul bolluğuna zəmin yaradıb, təsərrüfatın müxtəlif sahələr üzrə fəaliyyətini şaxələndirib.

Muxtar respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə yanacağın, motor yağının, gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi əkinçiliyin inkişafında yeni istiqamətlər açıb, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olub. 2019-cu ilin məhsulu üçün muxtar respublikada 62 min 970 hektar sahədə əkin aparılıb. Cari ilin ötən 9 ayında muxtar respublikada 109 min 760 ton dənli və dənli-paxlalı, 4207 ton dən üçün qarğıdalı, 772 ton dən üçün günəbaxan, 74 min 934 ton tərəvəz, 49 min 139 ton kartof, 36 min 790 ton bostan məhsulları, 40 min 202 ton meyvə, 9869 ton üzüm istehsal olunub. Bir neçə məhsul növü üzrə yığım hazırda davam etdirilir.

Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi əkinçiliyin inkişafını şərtləndirən əsas amillərdəndir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Belə ki, son illər muxtar respublikada 4 min 135 hektar sahədə yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib. Hazırda Şahbuz rayonunun Türkeş kəndində bu işlər davam etdirilir.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq muxtar respublikanın Kənd Təsərrüfatı Nazirliyi tərəfindən əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilir. Son illər əkinçilik üçün yararlı olmayan torpaq sahələrində iməciliklər yolu ilə salınan yeni meyvə bağları muxtar respublikanın yaşıl örtüyünü zənginləşdirməklə yanaşı, həm də əhali tələbatının ödənilməsi üçün geniş imkanlar açıb. Hər il bu meyvə bağlarından tonlarla məhsul yığılır.

Yüksəkkeyfiyyətli qida məhsullarının, xüsusilə ət və süd məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Hazırda muxtar respublikada iribuynuzlu mal-qaranın baş sayı 119 min 814-ə, xırdabuynuzlu heyvanların sayı isə 741 min 539 başa çatdırılıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu malqara üzrə 1845 baş, xırdabuynuzlu heyvanlar üzrə 12 min 806 baş çoxdur. Cari ilin ötən dövründə 9 heyvandarlıq təsərrüfatı yaradılıb, 2 heyvandarlıq təsərrüfatı genişləndirilib. Ümumilikdə, yanvar-sentyabr aylarında kənd təsərrüfatı subyektlərinə 8 milyon 776 min 600 manat məbləğində kreditlər verilib ki, bunun da 7 milyon 23 min manatı heyvandarlığa yönəldilib.

### Heyvandarlığın cins tərkibi yaxşılaşdırılır, məhsuldarlıq yüksəldilir

Muxtar respublikada heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılıb. Hazırda mərkəzdə yeni infrastruktur obyektlərinin tikintisi davam etdirilir. Heyvandarlıq təsərrüfatlarında 9 min 654 baş inək, düyə və camış süni yolla mayalandırılıb, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 6 min 383 baş sağlam bala alınıb. Həmçinin əhalinin balıq əti ilə təmin olunması istiqamətində də əsaslı işlər görülüb. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada balıq yetişdirilməsi ilə bağlı 16 təsərrüfat fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsində 2019-cu ilin ötən 9 ayı ərzində diri çəkidə ət istehsalı 19 min 105 ton, süd istehsalı 72 min 451 ton, yun istehsalı 904 ton, yumurta istehsalı isə 76 milyon 634 min 800 ədəd olub.

Əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün Dövlət Baytarlıq Xidməti ilə birgə sistemli tədbirlər görülür, qida məhsullarının, xüsusilə ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması, mal-qara və quşlar arasında baş verə biləcək xəstəliklərə qarşı profilaktik peyvəndləmə tədbirləri uğurla davam etdirilir.

Muxtar respublikada 74 min 244 arı ailəsi mövcuddur. Bu sahə üzrə dövlət proqramının qəbul olunması, istehsal olunan balın satışı üçün şəraitin yaradılması və ənənəvi olaraq "Arıçılıq məhsulları - bal festivalı"nın keçirilməsi arı ailələrinin çoxalmasına, bal istehsalının artmasına və bu sahədə sahibkarlığın inkişafına stimul olub.

### Aqroservis xidməti günün tələbləri səviyyəsində həyata keçirilir

Kənd təsərrüfatının bitkiçilik sahəsində əldə olunan uğurlarda sahibkarların müasir kənd təsərrüfatı texnikaları ilə təchiz edilməsinin böyük rolu vardır. Hazırda muxtar respublikada sahibkarlara aqroservis xidməti "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayonlarda olan kənd təsərrüfatı maşın və aqreqatları ilə yanaşı, şəxsi texnikalar vasitəsilə həyata keçirilir. Ötən dövrdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2694 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilib, onlardan 2240-ı nağd hesablaşma və lizinq yolu ilə sahibkarlara satılıb. Alınmış texnika və aqreqatların 319-u 2019-cu ilin ötən 9 ayında gətirilib. Mövcud texnikalar kənd təsərrüfatı sahəsində aqrotexniki tədbirləri keyfiyyətlə həyata keçirməyə imkan verir. Fermerlərə lizinq yolu ilə müasir tələblərə cavab verən yeni kənd təsərrüfatı texnikalarının alınıb icarəyə verilməsi ilə bağlı hökumət tərəfindən güzəştlər müəyyən edilib.

Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də işlər davam etdirilir. Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunub. Muxtar respublikanın əsas toxumçuluq bazası olan bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışı da həyata keçirilir. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Sahibkarlara elit, I və II reproduksiyalı buğda və arpa toxumlarının satışının təşkil edilməsi, eləcə də 70 faiz güzəştli şərtlərlə mineral gübrələrin verilməsi təmin olunur. Ötən dövrdə məhsul istehsalçıları 7 min 79 ton mineral gübrə ilə təmin edilib. I və II reproduksiyalı toxumların satışına görə dövlət tərəfindən subsidiyaların ödənilməsi, eləcə də əkin sahəsinin hər hektarına fermerlərə 50 manat yardım verilməsi təmin olunur.

### Əhalinin ilboyu meyvə-tərəvəz məhsulları ilə təminatı aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir

Muxtar respublikada iritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbinin ödənilməsinə imkan verir. Hazırda Naxçıvanda ümumi tutumu 15 min 945 ton olan 38 soyuducu anbar və sahəsi 131 min 162 kvadratmetr olan 23 istixana kompleksi fəaliyyət göstərir. Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının etibarlı ödənilməsi istiqamətində əlavə tədbirlər görülür, istehsal olunan malların satışı üçün hərtərəfli şərait yaradılır. Artıq bir neçə ildir ki, istehsalçıların istehsal etdikləri məhsulların satışını təmin etmək üçün kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilir. Bütün bunlar əhalinin ərzaq məhsulları ilə etibarlı təmin olunmasında həlledici rol oynayır.

2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması cari ildə belə təsərrüfatların daha da genişləndirilməsinə, əhalinin kənd təsərrüfatına olan marağının artmasına və maddi rifah halının daha da yaxşılaşdırılmasına səbəb olub. Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq tələbatın əsas etibarilə yerli istehsal hesabına ödənilməsinə nail olunub, daxili bazarda məhsul bolluğu yaradılıb. Ötən dövrdə muxtar respublikada 372 milyon 356 min 500 manat kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çoxdur.

Muxtar respublikada kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində qarşıya qoyulan vəzifələr bundan sonra diqqətdə saxlanılacaq, ardıcıl tədbirlər həyata keçiriləcəkdir.

# Bələdiyyələr regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayır



**Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Kamran Bayramovun yap.org.az-a müsahibəsi**

***- Kamran müəllim, bildiyimiz kimi, Azərbaycanda yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin yaradılmasından 20 il ötür. Sizcə, ötən dövr ərzində bu təsisat cəmiyyətimizdə özünü lazımi səviyyədə təsdiq edə bilibmi?***

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə planlı, düşünülmüş və mütəşəkkil formada regional siyasətin həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafını əhəmiyyətli dərəcədə sürətləndirmiş, demokratik proseslərə güclü təkan vermiş, o cümlədən vətəndaşlarımızın yerli səviyyədə idarəetmədə, həmin səviyyədə qərarların qəbul edilməsi prosesində birbaşa iştirak etməsi üçün əlverişli şərait yaratmışdır.

Azərbaycanın yerli özünüidarəetmə orqanları olan bələdiyyələr ölkəmizdə aparılan köklü islahatlar və yaşanan dinamik tərəqqi dövründə özünün inkişaf yolunu keçir, vətəndaşların mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, onların etibarını qazanmağa və cəmiyyətimizdə özünəməxsus yer tutmağa səy göstərir, fəallıqlarını artırır, öz səlahiyyətləri çərçivəsində konkret işlər görürlər.

Ötən dövr ərzində bir çox bələdiyyə yerli əhəmiyyətli məsələlərin həllində müsbət təcrübə toplamış, fəaliyyətlərində şəffaflığa, icra orqanları və qeyri-hökumət təşkilatları ilə işgüzar əlaqələrin qurulmasına nail olmuş, onların cəmiyyətdə rolu artmışdır.

Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın ilk Konstitusiyası digər mühüm əhəmiyyətli məsələlərlə yanaşı bələdiyyələrin yaradılması və statusunu ayrıca olaraq təsbit etmişdir. 1999-cu ildə ilk bələdiyyə seçkiləri keçirilmiş, ölkəmizdə bələdiyyə institutunun inkişafı istiqamətində ardıcıl tədbirlər görülmüş, bu sahədə mühüm qanunvericilik bazası formalaşdırılmış, bələdiyyələrin statusu, qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunaraq onların səmərəli fəaliyyəti üçün dövlət tərəfindən hər cür şərait yaradılmışdır.

Zənnimcə, bələdiyyə institutu cəmiyyətimizdə özünəməxsus yer tutmuş, bir çox ərazilərdə yerli əhalinin nüfuzunu qazana bilmişdir. Lakin, ölkəmizin sürətli inkişafı, ölkə başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosial islahatlar bələdiyyələrimizin də fəaliyyətinin bu inkişafa və islahatlara uyğun gücləndirilməsini, əhatə etdikləri ərazilərdə yaşayan vətəndaşların sosial sifariş və tələbatlarının tam ödənilməsini, onlara daha keyfiyyətli xidmətlərinin göstərilməsini və ümumilikdə, vətəndaşlara daha da yaxın olmasını zəruri edir.

***- Bu gün Azərbaycan Respublikasının regionları sosial-iqtisadi cəhətdən uğurla inkişaf edir. Bu prosesdə bələdiyyələr nə dərəcədə rol oynayır?***

- Qeyd etdiyim kimi, cənab Prezident tərəfindən regional siyasət planlı, düşünülmüş və mütəşəkkil qaydada həyata keçirilir, bölgələrimiz ölkə başçısının təsdiq etdiyi Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının uğurlu icrası nəticəsində inkişaf edir, regionlarda yaşayan əhalimiz bundan faydalanır.Bələdiyyələr də, regionların sosial-iqtisadi inkişafında çox mühüm rol oynayır, əhatə etdikləri ərazilərin təbii və sosial-iqtisadi potensialından, əmək ehtiyatlarından, yerüstü və yeraltı sərvətlərindən, su və torpaq ehtiyatlarından səmərəli istifadə etməklə müvafiq ərazinin inkişafına töhfə vermək və əhalinin rifahını yüksəltmək imkanlarına malikdirlər.

Eyni zamanda, bələdiyyələrin regionların inkişafında olan rolun bir təzahürü də cənab Prezidentin bu il yanvarın 29-da təsdiq etdiyi "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planının icrasında bələdiyyələrin iştirakıdır. Belə ki, qeyd edilən tədbirlər planına əsasən Proqramın əhatə etdiyi müddət ərzində bələdiyyələr turist cəlb edilməsi baxımından yüksək dəyərə malik olan prioritet turizm nümayiş obyektlərinin inkişaf etdirilməsində, sosial-iqtisadi inkişafla əlaqədar əhali arasında ekoloji maarifləndirmə işlərinin təşkilində, avtomobil yollarının, eləcə də qəsəbələrarası və qəsəbədaxili avtomobil yollarının tikintisi və yenidən qurulmasında, əhalinin mənzil şəraitinin yaxşılaşdırılmasında və abadlıq-quruculuq işlərinin davam etdirilməsində yaxından iştirak edəcəklər.

Bununla yanaşı, bələdiyyələrin mövcud olduğu ərazinin iqtisadi potensialının formalaşmasında iştirakı zəruridir. Xüsusilə sahibkarlığın inkişafına aid olan dövlət proqramları çərçivəsində bələdiyyələr öz ərazilərində kiçik sahibkarlıq üçün münbit şərait yarada, öz xidmət sahələrini, bələdiyyə müəssisələrini, təsərrüfat subyektlərini təşkil edə, şəxsi fəaliyyəti ilə region iqtisadiyyatının dinamik inkişafına təkan verə bilərlər.

***- Bələdiyyələr özlərinin müəssisə və xidmət sahələrini yaratmaqla da maliyyə imkanlarını artıra bilərlər. Yerli özünüidarəetmə orqanlarının belə təşəbbüslərinə rast gəlinirmi?***

- Ölkə qanunvericiliyinə əsasən, bələdiyyələrin müəssisə və xidmət sahələri yaratmaq hüququ vardır. Həmin müəssisələrdən bələdiyyələr mənfəət vergisi yığır, bunun hesabına yerli büdcəyə vəsait daxil olur, bələdiyyələrin maliyyə imkanları və iqtisadi potensialı artır. Ötən dövr ərzində ölkəmizdə 40-dan çox bələdiyyə müəssisəsi fəaliyyət göstərirdi, onların sırasında təmir-tikinti, məişət tullantılarının yığılması və nəqli, asfalt istehsalıfəaliyyəti və s. var idi.

Hazırda bu istiqamətdə bələdiyyələr fəallıq göstərməyə başlayıb, az da olsa yeni bələdiyyə müəssisləri və xidmət sahələri, məsələn dizayn və təmir-tikinti, balıqçılıq, mineral su istehsalı və s. müəssisələr yaradıblar.

Azərbaycan dövləti də bələdiyyə müəssisələrinin yaradılmasında da öz dəstəyini göstərir, bələdiyyələrə əməli dəstək və köməklik göstərir, zəruri tədbirlər görür. Belə ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş son dəyişikliklərə əsasən bələdiyyələrə ayrılan dotasiyalarla yanaşı dövlət büdcəsində bələdiyyələrə subvensiyanın ayrılması və həmin vəsait növünün dövlət büdcəsində ayrıca sətirlə müəyyən edilməsi nəzərdə tutulmuşdur. Onu da qeyd edim ki, subvensiya dedikdə, məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti nəzərdə tutulur.

Bu dəyişiklikliyin nəticəsində Azərbaycan Respublikasının 2019-cu il üçün dövlət büdcəsindən bələdiyyələrə 1 milyon manat məbləğində subvensiyalar ayrılmış və yerli büdcələrə gəlir gətirə bilən real lahiyələrin, məsələn bələdiyyə bazarının tikintisinin, xeyir-şər evinin təmir olunmasının, nümunəvi məhəllənin salınmasının, istirahət parkının və daxilində ictimai iaşə və digər təyinatlı obyektlərin qurulmasının maliyyələşdirməsi üçün müvafiq bələdiyyələrə istiqamətləndirilmişdir.

Artıq 2020-ci il üçün dövlət büdcəsində də bələdiyyələrə subvensiyaların ayrılması, ayrılan subvensiyaların məbləğinin artırılması nəzərdə tutulur.

Bütövlükdə hesab edirəm ki, bələdiyyələrin müəssisə və xidmət sahələri yaratmaq üçün imkanlarla yanaşı, əlverişli şərait də mövcuddur və bu fəaliyyət nəticədə həm bələdiyyə büdcələrin doldurulmasına, onların iqtisadi potensialının gücləndirilməsinə, həm də əhatə etdikləri ərazilərdə yeni iş yerlərinin açılmasına, sakinlərin məşğulluğunun təmin edilməsinə, əhalinin maddi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcəkdir.

***- Bələdiyyələrlə bağlı qanunvericilik hansı səviyyədədir? Bu sahədə qanunlara yeni dəyişikliklər gözlənilirmi?***

- Bələdiyyələrin səmərəli fəaliyyətinin təmin edilməsi üçün zəruri olan şərtlərdən biri də qanunvericilik bazasının formalaşdırılması və onun zamanın tələbinə uyğun təkmilləşdirilməsidir. Qeyd edim ki, Azərbaycan Respublikasında bələdiyyələrin fəaliyyəti üçün təkmil və sanballı normativ hüquqi baza yaradılmışdır. 1999-cu ildən keçən müddət ərzində bələdiyyələrin fəaliyyətinə dair 20-yə yaxın qanun qəbul olunub, mövcud qanunlara yüzlərlə dəyişikliklər edilib. Belə ki, bələdiyyə fəaliyyətini tənzimləyən əsas qanunlar sırasında "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Bələdiyyələrin əraziləri və torpaqları haqqında", "Bələdiyyə qulluğu haqqında" və digər qanunları qeyd etmək olar. Qəbul olunmuş qanunlarda yerli özünüidarəetmənin çox mühüm məsələləri - yerli büdcənin formalaşdırılması, təsdiqi və icrası, yerli vergi və ödənişlərin müəyyən edilməsi, yerli sosial müdafiə, yerli iqtisadi, ekoloji proqramların işlənib hazırlanması və reallaşdırılması, mülkiyyət münasibətlərinin formalaşdırılması, ərazi məsələləri və s. məsələlər öz əksini tapmışdır.

Eyni zamanda, ölkəmiz yerli özünüidarəetmə ilə bağlı hüquqi münasibətləri tənzimləyən bir sıra beynəlxalq sənədlərə qoşulmuş, o cümlədən Avropa məkanında bələdiyyələr üçün başlıca beynəlxalq normativ-hüquqi akt hesab edilən "Yerliözünüidarə haqqında" Avropa Xartiyası Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmiş və 1 avqust 2002-ci il tarixdə ölkəmizə münasibətdə qüvvəyə minmişdir.

Qəbul olunmuş qanunlara zərurət yarandıqca dəyişikliklər edilir. Hal-hazırda da qanunvericiliyin təkmilləşdirilməsi prosesi davam edir. Məlumat üçün bildirim ki, bələdiyyə qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə Milli Məclisin Regional məsələlər komitəsində Milli Məclisin deputatlarından, Ədliyyə Nazirliyinin, bələdiyyələrin milli assosiasiyalarının nümayəndələrindən, bələdiyyə sədrlərinin və üzvlərindən ibarət işçi qrupu yaradılmışdır. İşçi qrupun bir neçə iclası keçirilmiş, bədəiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılmasına, şəffaflığın yüksəlməsinə, onların maliyyə və iqtisadi potensialının gücləndirilməsinə xidmət edən bir sıra qanun layihələri hazırlanmış, komitənin iclaslarında müzakirəyə çıxarılaraq Milli Məclisin plenar iclasına tövsiyə olunmuş və nəticədə Milli Məclis tərəfindən qəbul olunmuşdur. Güman edirəm ki, yaxın zamanlarda yeni qanun layihələrin hazırlanmasının və qəbul olunmasının şahidi olacağıq.

***- Kamran müəllim, dekabr ayında növbəti bələdiyyə seçkiləri keçiriləcək. Artıq seçki kampaniyasına start verilib. Bu seçkilərdən gözləntiləriniz nədən ibarətdir?***

- Bələdiyyələrin səmərəli fəaliyyətinin digər bir şərti isə onların seçkili olmasıdır. Yerli özünüidarəetmə orqanlarının dövlət qurumlarından fərqi məhz seçkili olmaları ilə əlaqədardır. Ölkəmizdə bu günə qədər dörd bələdiyyə seçkiləri keçirilib. İlk iki seçkilər göstərdi ki, bələdiyyələrə seçilmiş üzvlərin bu fəaliyyətə hazırlıq səviyyəsi o qədər də yüksək olmamışdır. Təbii ki, bu işlə məşğul olmaq üçün bələdiyyələrə rəhbərlik üçün müəyyən idarəçilik bacarığı, bilik, təcrübə, yüksək intellekt və ixtisas olmalı idi. İlk iki bələdiyyə seçkilərinə nəzər salsaq görərik ki, bələdiyyə üzvlərinin əksəriyyəti yerli özünüidarəetmə haqqında təsəvvürə malik olmamışlar.

Lakin 2009-cu ildə keçirilən seçkilərin nəticələri göstərdi ki, bələdiyyə üzvlüyünə layiqli insanlar seçildi, onların arasında ali təhsillilərin, gənclərin, qadınların sayı artmışdı. Nəhayət, 2014-cü ildə keçirilmiş seçkilər nəticəsində göstəricilər daha da yüksək oldu. 2009-cu il bələdiyyə seçkilərində seçici fəallığı 31,9 faiz olduğu halda, 2014-cü ilin dekabr ayının 23-də keçirilmiş seçkilərdə seçici fəallığı artmış, onların 38,9 faizi seçkilərdə iştirak etmiş, bu da əhalinin yerli özünüidarəetmə orqanlarına olan marağının artdığını göstərmişdir. 2014-cü il bələdiyyə seçkilərində iştirak etmək istəyənlərin sayı 38 min nəfəri ötmüşdü. Orta hesabla 2009-cu ildə bir bələdiyyə üzvü yerinə 1,9 nəfər düşdüyü halda, 2014-cü ildə bu göstərici 2,5 nəfər olmuşdur. O zaman 1607 bələdiyyəmiz və 15035 bələdiyyə üzvü var idi. Yəni əvvəlki seçkilərlə müqayisədə rəqabət yüksək idi. 2014-cü ildə yeni seçilmiş bələdiyyə üzvləri sırasında ali təhsilli şəxslərin sayı 89,8 faiz təşkil edib. Eyni zamanda, qadınlar sayı 35,0 faiz, gənclərin sayı isə 36,4 faiz olub. Bütün bunlar ondan xəbər verir ki, bizim cəmiyyətimiz, seçicilərimiz bu qurumlara diqqətini artırır. İnsanlar nəinki seçmək, eləcə də seçilmək niyyətlərini daşıyırlar. Bu ilin dekabr ayına təyin edilmiş sayca beşinci bələdiyyə seçkiləri, zənnimcə, yuxarıda qeyd etdiyim göstəriciləri daha da üstələyəcək və insanlarımızın bələdiyyə orqanlarına diqqətin və marağın daha çox artdığını göstərəcəkdir.

# FED-in geri addımı Azərbaycana təsir edəcəkmi?



"ABŞ lideri Donald Tramp hakimiyyətə gələndən FED-in siyasəti əleyhinə çıxıb ki, dolların kursunun möhkəmləndirilməsi düzgün yanaşma deyil. Tramp hesab edir ki, bu, ölkə iqtisadiyyatı üçün yaxşı heç nə vəd etmir". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Pərviz Heydərov deyib.

Onun sözlərinə görə, Tramp bunu hakimiyyətə gəlməzdən öncə də qeyd edirdi, prezident seçildikdən sonra da dəfələrlə FED rəhbərliyinin apardığı bu siyasəti tənqid etdi: "Onun dediklərində bir həqiqət var idi ki, Federal Ehtiyat Sistemi uzunmüddətli şəkildə uçot dərəcəsini yüksəltməkdə davam edə bilməzdi. Çünki bu, ölkənin ixrac potensialı və iqtisadiyyatda müşahidə olunan artımla bağlı yaxşı heç nə vəd etmir. Çox keçmədi ki, bu özünü doğrultdu".

Ekspertin fikrincə, xüsusən ABŞ-ın Çin və Avropa Birliyi ilə ticarət anlaşılmazlıqlarına start verməsi FED-in bu siyasətinin səhv olduğunu daha tez üzə çıxartdı: "Ölkə iqtisadiyyatında 2008-2009-cu illərdə müşahidə olunan məlum qlobal maliyyə-iqtisadi böhrandan sonrakı dövrdə əldə olunan bərpa və iqtisadi artım tempi hiss olunacaq dərəcədə zəifləməyə başlamışdı. Bu ilin əvvəlindən etibarən zəifləmə tempi özünü daha açıq şəkildə göstərməyə başladı. Ona görə də ABŞ-ın Çin və Avropa Birliyi ilə olan ticarət anlaşılmazlıqları məsələsi hələ ki ortadan qalxmayıb. FED-in artıq 1 il ərzində 3-cü dəfə geriyə addım artması anlaşılandır və təbii qarşılanmalıdır. Növbəti addımlarda da bu siyasətin davam etdiriləcəyini gözləməyə dəyər".

P. Heydərov əlavə edib ki, bu qərarın Azərbaycana birbaşa hər hansı təsiri yoxdur: "ABŞ dollarının ucuzlaşması neftin qiymətinin bahalaşmasının qarşısını alır. Azərbaycan manatının məzənnəsini müəyyən edən neftin dünya bazarındakı qiymətləridir. Adətən ABŞ dolları möhkəmləndə neftin qiyməti aşağı düşür, neft bahalaşanda isə dollar ucuzlaşır".

İqtisadçının fikrincə, Federal Ehtiyat Sisteminin bu qərarları o demək deyil ki, ABŞ dolları dərhal zəifləyəcək, mövqelərini itirəcək: "Birinci qərarda bu özünü göstərmədi, ikinci qərarda cüzi olaraq hiss olundu. Mən güman etmirəm ki, budəfəki qərar ABŞ dollarını ciddi şəkildə zəiflədəcək. Bu gözlənilmir. Əgər olsa belə bunun özü dünya bazarında neftin qiymətinin sonrakı dövrdə bahalaşmasının önündə bir sədd yaradır. Neftin indiki qiyməti bizə sərf edir, manatın bugünkü dəyəri üçün yetərlidir, o zaman FED-in son qərarlarından dolayı manatla bağlı narahatlığa əsas yoxdur".

***Nailə Məhərrəmova***

# Bəhruz Quliyev: "Müxalifət bir daha əmin oldu ki, cəmiyyət mitinq fikirlərini dəstəkləmir"

***"Oktyabrın 19-da "Milli Şura" tərəfindən keçirilən icazəsiz aksiya cəhdi bir daha göstərdi ki, xalq onların mitinq istəyini dəstəkləmir və radikal müxalifət heç bir sosial bazaya malik deyil". Bu fikirləri SİA-ya açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. O bildirib ki, bir-iki öyrədilmiş şəxsin çağırışı ilə heç nəyə nail olmaq mümkün deyil: "Son aksiya cəhdi bir daha sübut etdi ki, bu gün mitinq mövzusu aktual deyil. Azərbaycan xalqı iqtidara inanır. Xalqımız hər hansı problemlərin həllində dövlətimizin, ölkə başçısının atdığı addımları dəstəkləyir".***



Ekspert söyləyib ki, bu gün ölkəmizdə həyata keçirilən və bütün sahələri əhatə edən islahatlar, proseslər vətəndaşların sosial müdafiəsinə, rifahına müsbət mənada təsir göstərirsə, mühüm addımlar atılırsa, dəyişikliklər edilirsə, demək əsl inqilabçı hakimiyyətin özüdür.

B.Quliyev vurğulayıb ki, bu gün müxalifətin şəhərin mərkəzində aksiya keçirməsinə nə zərurət, nə də sosial sifariş var: "Bilirsiniz ki, müxalifət noyabrın 2-də mitinq keçirmək istəyirdi. Hər zaman olduğu kimi, onlar bu dəfə də mitinqdən qabaq sosial şəbəkələrdə eksperiment apararaq aksiya istəyinin cəmiyyətdə necə qarşılanması təcrübəsindən istifadə etdilər. Onlar bununla bir daha əmin oldular ki, cəmiyyət mitinq fikirlərini dəstəkləmir. Müxalifətə mitinq keçirməklə bağlı rəsmi icazə verilsə də, onlar ayrılan ərazini doldurmaq gücünə malik deyillər. Bu baxımdan da "Milli Şura" şəhərin mərkəzlərinə can ataraq sadə insanları öz aksiyalarına qatmaq, say artırmaq məqsədi güdürdü. Amma göründüyü kimi onların bu cəhdi də alınmadı, xalqın özündən mitinq çağırışı edənlərə qarşı böyük narazılıq, təpki görərək noyabrın 2-nə təyin olunmuş qanunsuz aksiyanı arxa plana keçirdilər. Çünki, bu aksiya onların olmayan nüfuzuna zərər gətirəcək və onların tam şəkildə cəmiyyətdən təcrid olunmasına gətirib çıxaracaqdı".

# İnam Kərimov: "Kənd təsərrüfatına, fermerlərə dövlət tərəfindən hərtərəfli qayğı və dəstək göstərilir"



Aqrar sahə bu il də ötən ildə olduğu kimi inkişaf edir, fermerlərimiz bütün sahələrdə - taxılçılıq, pambıqçılıq, tütünçülük və digər sahələrdə uğurlu nəticələr qazanıblar. Hesab edirəm ki, dövlətimizin bu sahəyə göstərdiyi qayğı və Prezidentimizin tapşırıqları nəticəsində fermerlərimiz tərəfindən gələn il aqrar sektorda daha böyük uğurlar əldə olunacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Kənd Təsərrüfatı naziri İnam Kərimov 1 noyabr - Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə jurnalistlərə açıqlamasında deyib. İnam Kərimov bildirib ki, kənd təsərrüfatına, fermerlərə dövlət tərəfindən hərtərəfli qayğı və dəstək göstərilir. Hər il noyabrın 1-nin kənd təsərrüfatı işçilərinin peşə bayramı kimi qeyd edilməsi də dövlət tərəfindən bu sahəyə göstərilən qayğının bir təzahürdür.

Nazir subsidiyaların elektronlaşdırılmasından danışarkən qeyd edib ki, subsidiyaların verilməsi, qeydiyyata alınması Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə reallaşacaq. Hazırda fermerlər elektron kənd təsərrüfatı sistemindən qeydiyyatdan keçib və subsidiyalar gələn ildən ancaq elektron qaydada veriləcək.

# "Uydurma "erməni soyqırımı"nın qəbulu ABŞ-ın demokratik ənənələrinə uyğun gəlmir"



***"ABŞ Nümayəndələr Palatasının uydurma "erməni soyqırımı" qətnaməsi çox subyektiv şəkildə böyük bir millətin subyektinə, hissiyatına təsir etmək, ən əsası isə Türkiyəyə təzyiq göstərmək kampaniyasının tərkib hissəsidir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Onun sözlərinə görə, hər kəs tarixdə belə bir soyqırımının olmadığını yaxşı bilir: "O dövrdə köç siyasəti keçirilib. Belə ki, öz ölkəsinin maraqlarına xəyanət edən insanlar bir ərazidən başqa yerə köçürülüb".***

Türkiyənin ötən gün əhalinin siyahıya alınması prosesinə start verdiyini deyən politoloq söyləyib ki, həmin dövrdə qondarma soyqırımının həyata keçirdiyi ərazilərdə yaşayan ermənilərin sayı cəmi 300 min nəfər olub: "300 min erməni olan ərazidə 1 milyondan çox erməninin necə qırmaq olar? Yaxudda ki, 300 min nəfər milyon yarım adama neçə çevrilə bilər? Həmin adamların böyük qismi qatarlarla indiki Marvin, Diyarbəkir, bəziləri Osmanlının tabeliyində olan Suriya, İraq və digər ərazilərə köçürülüblər. Osmanlı əsgərinin güllləsi ilə bir dənə də olsun erməni öldürülməyib".

Q.Hüseynli qeyd edib ki, ABŞ Nümayəndələr Palatasının qəbul etdiyi qətnamə Türkiyənin nüfuzunu aşağı salmaq məqsədi güdən hərəkətdir: "Tarixdən zərrə qədər anlayışı olmayan konresmenlər, Nümayəndələr Palatasının üzvləri bu cür özbaşınalığa, tarixi saxtalaşdırmağa gedirsə, bu, siyasi qərəzlikdir. Donald Tramp ölkəsində başqa xalqların hissiyyatına toxunacaq hərəkətlərə verməməlidir. Çünki, bütün dünyada sübut olunub ki, erməni soyqırımı adlanan hadisə baş verməyib. Bunu qəbul edən bəzi xristian ölkələr, meydanı qızışdıran isə Fransadır. Ümumilkdə isə, ABŞ-ın belə addım atması ölkənin demokratik, dövlət quruluşu ənənələrinə qətiyyən uyğun gəlmir".

# Avrokomissiya TAP-ı yenidən Avropa İttifaqının ümumi maraq layihələri siyahısına daxil edib

Avropa Komissiyası "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsini yenidən Avropa İttifaqının (Aİ) ümumi maraq layihələri (PCI) siyahısına daxil edib. AZƏRTAC Avropa Komissiyasına istinadla xəbər verir ki, TAP boru kəməri Azərbaycan təbii qazını Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliya sahillərinə çatdıracaq.

Sayca dördüncü dəfə hazırlanan PCI üzrə qaz layihələrinin sayı 2 il əvvəllə müqayisədə 53-dən 32-yə enib. Ümumilikdə PCI siyahısındakı bütün layihələrin sayı 21 faizədək azalıb. Bildirilir ki, Aİ-nin qaz şəbəkəsi daha möhkəmlənib və bütün mövcud PCI-lər tətbiq olunarsa, Avropa İttifaqı 2020-ci ilin əvvəlində birbiri ilə daha sıx əlaqəli və şoklara davamlı qaz şəbəkəsinə sahib olacaq.

# Suriyada bir türk hərbçisi şəhid olub, altısı yaralanıb



Türkiyə Silahlı Qüvvələrinin Suriya ərazisində həyata keçirdiyi "Sülh çeşməsi" antiterror əməliyyatında iştirak edən hərbçilərdən biri şəhid olub, altısı yaralanıb. Türkiyənin Milli Müdafiə Nazirliyinin saytında yer alan xəbərdə deyilir ki, hadisə terrorçuların əvvəlcədən basdırdıqları partlayıcı qurğunun işə salınması nəticəsində baş verib. Türkiyə Hərbi Hava Qüvvələri isə İraqın şimalında Kandil və Haftanin bölgələrində terror düşərgələrinə qarşı daha bir uğurlu əməliyyat keçiriblər. Dəqiq aviazərbələr nəticəsində üç nəfər PKK terrorçusu məhv edilib.

# “Qlobal Rəqabətlilik İndeksi - 2019”da Azərbaycan iqtisadiyyatı 11 pillə irəliləyib

*Həm Dünya Bankının “Doing Business” hesabatı, həm də Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətlilik İndeksi” Prezident İlham Əliyevin islahatlarının dərinləşməsinin qiymətləndirilməsidir*






***Azərbaycanda geniş miqyas alan iqtisadi islahatlara, milyonların rifahına xidmət edən sosial paketlərə daha bir beynəlxalq qiymət verildi. Dünya İqtisadi Forumunun nəşr etdiyi “Qlobal Rəqabətlilik İndeksi - 2019”da Azərbaycan iqtisadiyyatı 11 pillə irəliləyərək, 141 ölkə içərisində 62,7 balla 58-ci yerdə qərarlaşdı. Ölkəmiz 12 indikatordan 8-i - “institutlar”, “infrastruktur”, “makroiqtisadi sabitlik”, “bacarıqlar”, “əmtəə bazarı”, “əmək bazarı”, “biznesin dinamikliyi” və “innovasiya” üzrə ötən ilə nisbətən irəliləyib.***

“Qlobal Rəqabətlilik İndeksi” beynəlxalq təşkilatlar, investor və sahibkarlar, müstəqil beyin mərkəzləri tərəfindən istinad mənbəyi kimi istifadə olunur. Son hesabata əsasən, Azərbaycan 141 ölkə arasında ən böyük yüksəliş balı (11 bal) əldə edib. Ölkəmiz bu nəticə ilə Cənubi Qafqaz dövlətləri arasında lider, MDB ölkələri arasında isə ilk üçlükdədir.

Dünya İqtisadi Forumunun ötənilki Qlobal Rəqabətlilik Hesabatında da Azərbaycan müxtəlif indekslərdə yüksəlmişdi. Tamamilə, yeni metodologiya əsasında hazırlanan hesabatda ölkəmiz dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu dövlət kimi göstərilmişdi. Həmçinin, Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal 100 faiz bal almaqla dünyada ilk pilləyə yüksəlmişdi.

Yeni reytinqə əsasən, Ermənistan 61,3 bal ilə siyahıda 69-cu, Gürcüstan 60,6 balla 74-cü pillədə qərarlaşıb. 141 ölkədən ibarət reytinq siyahısının beşliyinə ilk yerdə Sinqapur olmaqla ABŞ, Honkonq, Niderland və İsveçrə daxildir.

Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizdən çoxu, məhz Azərbaycanın payına düşür. Ölkəmiz iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə, dünya dövlətləri arasında qabaqcıl yerlərdən birini tutur. Fərəhli haldır ki, bu reallıqlar yalnız yerli mütəxəssislər tərəfindən deyil, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunur. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın potensial maliyyə və iqtisadi imkanlarını yüksək qiymətləndirirlər.

Dünya İqtisadi Forumunun son hesabatı da Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatların nəticələrinin daha bir beynəlxalq platformada əks olunmasıdır desək, yanılmarıq. Bu, Cənab İlham Əliyevin məqsədyönlü və dərin iqtisadi islahatlarına verilən beynəlxalq qiymət olmaqla, bərabər reallığa çevrilən yeniliklərin dünyanın ən nüfuzlu iqtisadi qurumlarının diqqətindən yayınmamasının əyani təzahürüdür. Yeni ölkəmizin iqtisadi sahədə qazandığı nailiyyətlər, eləcə də, həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindədir.

## Ölkəmizin Dünya İqtisadi Forumunun son hesabatındakı 8 indikator üzrə yüksəlişinə nəzər yetirək

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı icmalda göstərilir ki, hesabatda hər 12 indikator müxtəlif sub-indikatorlara bölünərək, ümumi nəticənin hesablanmasını əks etdirir. Azərbaycan “institutlar” indikatoru üzrə 9 pillə irəliləyərək ölkəmizdə məhkəmə hüquq, hüquqmühafizə orqanları, terrorizmlə mübarizə, polisə etimad, büdcə şəffaflığı və hesabatlılığı, məhkəmələrin müstəqilliyi, media azadlığı, mülkiyyət və intellektual mülkiyyətin qorunması, əmlak idarəetməsi, korporativ idarəetmə, hökumətin uzunmüddətli strateji baxışı və elektron-hökumət istiqamətləri yüksəliş balları əldə edib. Bu subindikatorlar “institutlar” indikatorunun tərkib hissəsi olmaqla, son nəticəni hesablayaraq, reytinqi müəyyənləşdirir.

“İnfrastruktur” indikatoru ikinci göstərici olmaqla, yolların effektivliyi və keyfiyyəti, dəmiryolu və hava yollarında effektivlik, keyfiyyət və əlaqələndirmə, kommunal infrastrukturun keyfiyyəti, elektriklə təchizolunma səviyyəsi, əhalinin təmiz su ilə təmin olunmasını əks etdirir ki, Azərbaycan 8 pillə irəliləyərək, 77,4 balla dünya ölkələri arasında 38-ci mövqedə qərarlaşıb.

Azərbaycan makroiqtisadi vəziyyəti özündə ehtiva edən “makroiqtisadi sabitlik” indikatoru üzrə 23 pillə irəliləyib. Belə ki, inflyasiya və borc dinamikası əsasında hesablanan indikator üzrə bu səviyyədə irəliləyən yeganə ölkə Azərbaycandır.

Təhsil və insan kapitalının son vəziyyətini əks etdirən indikator üzrə hesabat “bacarıqlar” adı altında hazırlanır. Orta təhsilin keyfiyyəti və təhsil alan şagirdlərin oxuma dövrü, məzun olan şəxslərin şəxsi inkişafları üzərində işləməsi, aktiv əhali arasında rəqəmsal bacarıqlar üzrə ölkəmiz 6 pillə irəliləyib. Bu artım Birinci vitse-prezident Mehriban Əliyevanın təhsil və insan kapitalının inkişafı istiqamətində göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Ticarət və gömrük siyasətini özündə əks etdirən “əmtəə bazarı” göstəricisi 2 sub-indeksə bölünərək, müvafiq olaraq, ölkədaxili rəqabət və ticarət açıqlığını hesablayır. Göstəricinin hesablanma istiqamətləri bazarlarda inhisarçılıq və onun səviyyəsi, xidmət sektorunda rəqabətlilik, qeyri-tarif tənzimləmə tədbirləri, ticarət tarifləri və sərhəd-keçid məntəqələrində gömrük rəsmiləşdirilməsinin çevikliyindən ibarətdir. Azərbaycan “əmtəə bazarı” göstəricisi üzrə 14 pillə irəliləyərək yuxarıda göstərilən parametrlər üzrə yüksək bal əldə edib.

İşçilərdən və əmək resurslarından səmərəli istifadəni özündə əks etdirən “əmək bazarı” indikatoru üzrə son illər ciddi islahatlar aparılıb ki, bu islahatların bir çox hissəsi qanunvericilik dəyişikliklərindən və institusional islahatlardan ibarətdir. “Əmək bazarı” üzrə Azərbaycan 19 pillə irəliləyərək, dünya ölkələri arasında 21-ci mövqedə qərarlaşıb.

Son iki göstərici kimi təhlil edilən “biznesin dinamikliyi” və “innovasiya” üzrə Azərbaycan, müvafiq olaraq, 8 və 3 pillə irəliləyərək, ölkəmizin biznes mühitinin inkişafı istiqaməti üzrə aparılan intensiv islahatlara adekvat cavab verib. Sahibkarlıq risklərinin tənzimlənməsi, ölkə üzrə müflisləşmə, biznesə başlamaq üçün sərf olunan zaman, elm-tədqiqat xərcləri, patent müraciətləri, tədqiqat institutlarının sayı və keyfiyyəti, biznesdə innovativ yeniliklərin tətbiqi üzrə Azərbaycan dünya ölkələri arasında yüksək bal əldə etmiş reytinqə malikdir. Yalnız “biznesin dinamikliyi” üzrə Azərbaycan 141 ölkə arasında 31-ci mövqedə qərarlaşıb.

Sentyabr ayında Dünya Bankının hər il hazırladığı yeni “Doing Business” hesabatında da Azərbaycanda həyata keçirilən islahatların yüksək qiymətləndirilməsi deyilənlərin təsdiqidir. “Doing Business 2020” hesabatında Azərbaycan ötən illə müqayisədə daha 5 pillə irəliləyərək, ən islahatçı 20 ölkə sırasına daxil edilib. Bu hesabatda ölkəmiz əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların hüquqlarının qorunması, müqavilələrin icrasının təmin edilməsi indikatorları üzrə irəliləmişdi. Sənəddə, həmçinin, göstərilirdi ki, paytaxtın kadastr xəritəsinin tərtib olunması və Bakıdakı hər bir fərdi torpaq sahəsinin qeydiyyatı, eləcə də, mövcud sənədləşmənin təkmilləşdirilməsi və daşınmaz əmlak prosedurlarının çevikliyi nəticəsində, daşınmaz əmlakın qeydiyyatı prosesi daha da sürətlənib.

Həm Dünya Bankının “Doing Business” hesabatı, həm də Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətlilik İndeksi” Prezident İlham Əliyevin islahatlarının dərinləşməsinin qiymətləndirilməsidir. Yəni bu, islahatların davamlılığına verilən beynəlxalq dəyərdir. Bütün bunlar, onu deməyə əsas verir ki, Azərbaycan növbəti dövrlərdə də dərinləşmiş islahatları davam etdirəcək.

***“Səs” Analitik Qrupu***

# “Azərbaycanlıya ksenofobiyası Mnasakanyanı ağıldan məhrum edib”



Ermənistanın Xarici İşlər naziri Z.Mnasakanyan BBC-nin məşhur “Hard tolk” verilişinin aparıcısı S.Sakurun suallarına cavab verərkən 90-cı illərdə Azərbaycanın Dağlıq Qarabağda ermənilərin 40 faizini öldürdüyünü açıqladı. Ermənin savadının, təhsilinin, səviyyəsinin azərbaycanlılara və türklərə aid məsələlərə qətiyyən dəxlinin olmadığı bir daha sübut olundu. Bir az əvvəlcə Ermənistanı Aİ və BMT-də təmsil etmiş nazir Z.Mnasakanyan Azərbaycan adı gələndə normal məntiqdən, ağıldan məhrum olur”. Bunu SİA-ya politoloq Mübariz Əhmədoğlu deyib.

Politoloqun sözlərinə görə, Z.Mnasakanyan Xİ naziri olduqdan sonra onun Türkiyə və Azərbaycana aid bir dənə olsun etirazsız, ambisiyasız bəyanatı və ya yanaşması yoxdur: “Dağlıq Qarabağ ermənilərinin 40 faizinin Azərbaycan tərəfindən öldürülməsi fikri artıq onun ağıldan məhrum olma dərəcəsində olduğunun göstəricisidir. Vaxtilə “Azərbaycan Dağlıq Qarabağ əhalisinin 20 faizini qırıb, Dağlıq Qarabağ ərazisinin 20 faizini işğal edib” uydurmalarını açıqlamışdı.

1988-ci ildə Dağlıq Qarabağda 180 min əhali yaşayıb. Bunun 60 mini azərbaycanlı,120 mini isə erməni olub. Hal-hazırda rəsmi Bakı tərəfdən açıqlanan rəqəmlərə görə Dağlıq Qarabağ azərbaycanlılarının sayı 86 min nəfərə çatıb. ER Xİ naziri Z.Mnasakanyanın dediyini hesablasaq müharibədən sonra Dağlıq Qarabağda 72 min nəfər erməni (120 mindən 40 faizi çıxsaq) qalıb. Ermənilərdə demoqrafik artım azərbaycanlılara nisbətən zəifdir. Mnasakanyanın metodikası ilə bu gün Dağlıq Qarabağda yerli ermənilərin sayı 80 min nəfərdir. Dağlıq Qarabağın statusunun müəyyən olunmasında əhali iştirak edəcəksə, bu halda 86 min azərbaycanlı, 80 min erməni iştirak edəcəkdir. Dağlıq Qarabağın statusunun müəyyən olunmasını ermənilər yubatsalar rəqəmlər arasındakı fərq eyni bu tənasüb üzrə artacaqdır.

Z.Mnasakanyan başa düşməlidir ki, erməni olmazdan əvvəlcə insan olmaq lazımdır. Dünya ermənilərinin və Ermənistanın SSRİ dağılan ərəfədəki vəziyyəti ilə indiki halının müqayisəli təhlilini aparsın. Azərbaycanlılara qarşı ksenofobiya faşizmə çevrilib. İşğalçılıq şüuru formalaşdırıb. Dünya erməniliyinin indiki uçuruma gedən yolu da belə tikilib”.

*Ceyhun Rasimoğlu*

# Ermənistanda aksiyalara start verilib






Ermənistanda etirazçılar Baqramyan prospektini bağlayıblar. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadə xəbər verir ki, aksiyaçılar İstanbul Konvensiyasının ratifikasiyasına görə Nikol Paşinyan hökumətinə etiraz edirlər.

Məlumatda qeyd olunur ki, Ermənistan Milli Məclisi qarşısında gərgin bir vəziyyət olub. Polisin çağırışlarından sonra aksiya iştirakçıları Baqramyan prospektinin qarşısını kəsiblər. Aksiyaçılar hətta günlərlə küçələri bağlamaq niyyətində olduqlarını da gizlətməyiblər. Belə aydın olur ki, Ermənistanda aksiyalara start verilib və hələ davamı da olacaq. Öz növbəsində polis də aksiyaçıların nəzərinə çatdırıb ki, nəqliyyatın hərəkətinə maneə törədilərsə, onlara qarşı zor, güc tətbiq ediləcək.

Polisin güc tətbiq ediləcək ifadəsindən aksiyaçılar daha da qızışıblar və bildiriblər ki, bir zaman Nikol Paşinyan özü də küçələri bağlayırdı və indi onun əmri ilə digər aksiyaçılara güc tətbiq edilməsi heç bir çərçivəyə sığışmır. Etirazçılar hətta onlarla Nikol Paşinyan arasında nə fərq var sualını da polislərə üvanlayıblar. Soruşublar ki, niyə Paşinyan etiraz aksiyası keçirə, küçələri bağlaya bilirdi, amma onlar bağlayanda buna görə güc, zor tətbiq edilir?

*İnam Hacıyev*

## Moskva Ermənistana ikinci xəbərdarlığını edir

Ermənistan hakimiyyətinə artıq ikinci dəfədir ki, xəbərdarlıq edilir. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, dünən ATƏT-in Minsk Qrupunun Rusiya xarici işlər naziri Sergey Lavrov Dağlıq Qarabağ münaqişəsinə toxunub və hətta bu rakursda Ermənistana xəbərdarlıqlar da edib.

Məlumatda qeyd olunur ki, Lavrov daha əvvəl Valday Forumundakı çıxışında Nikolay Paşinyanın “Qarabağ Ermənistandır və son” ifadəsini tənqid edərək, bu cür ifadələrin danışıqların davam etməsinə şərait yaratmadığını vurğulamışdı. İndi artıq ikinci dəfədir ki, Moskva Lavrov səviyyəsində Ermənistanı tənqid atəşinə tutur və xəbərdarlıq edir.

# “Milli Şura” siyasi təcrid vəziyyətinə düşüb

***Cəmiyyətdə qarşıdurma yaratmaq, iğtişaşlar törətməyi qarşısına məqsəd qoyan dağıdıcı xislətli “Milli Şura” deyilən qondarma qurum, ötən şənbə olduğu kimi, bu şənbə də, şəhərin mərkəzində icazəsiz aksiya keçirməklə qarşıdurma yaratmağı planlaşdırmışdır. Ancaq zəiflik və özlərinə inamsızlıq onları icazəsiz aksiya planın təxirə salınmasına məcbur etdi. Söhbət etdiyimiz müsahiblərimiz “Milli Şura”nın zəif və törtöküntüdən ibarət olan qurum olduğunu və bu səbəbdən də, icazəsiz aksiyanı təxirə salmağa məcbur olduğunu bildirdilər.***




### “Yurddaş” partiyasının sədri Mais Səfərli: “Müxalifətin hərəkətləri anormallıqdır”

- Müxalifətin hərəkətləri anormallıqdır. Müxalif düşərgəni təmsil edən şəxslər şou yaradaraq gündəmdə qalmaq üçün çoxçeşidli üsul və vasitələrdən istifadə edirlər. Heç kəsə sirr deyil ki, xaricdəki bəzi qüvvələr də Azərbaycanın inkişafına kölgə salmaq üçün bu cür şəxslərdən istifadə edirlər. Yəni həmin qüvvələr Azərbaycanda nə isə bir xoşagəlməz vəziyyət yaratmaq üçün müxalif şəxslərdən bir alət kimi istifadə etməyə çalışırlar. Təbii ki, xaricdən maliyyələşən şəxslər də onların sifarişlərini yerinə yetirməlidirlər. Lakin bu günə qədər onların hər hansı bir olay yaratmaq cəhdləri nəticəsiz qalıb. Çünki onların buna gücü çatmır. O cümlədən də, bu gün müxalifətin xalq tərəfindən də heç bir dəstəyi yoxdur. Xalq bunları nə eşitmək, nə də ki, görmək istəyir. Yəni xalq radikal müxalifət düşərgəsini təmsil edən bu şəxslərin anormal hərəkətlərindən artıq bezib. Yaxşı olardı ki, müxalifət təmsilçiləri bu cür yersiz hərəkətlərindən əl çəksinlər. Müxalifətə sula vermək lazımdır ki, sizə mitinqlər keçirmək üçün yer verilib, nəyə görə sizlər ayrılan yerdə mitinqlərinizi keçirmirsiniz? Onsuz da müxalifət istər icazəli, istərsə də icazəsiz aksiya keçirsələr belə, onların bu mitinqlərinə özlərindən, qohumlarından başqa heç kəs qatılmır və bundan sonra da qatılmayacaq.

### TOHGMİB-nın sədri Emin Həsənli: “Xarici qüvvələr müxalifətdən alət kimi istifadə edir”

- Hər zaman müxalifət düşərgəsini təmsil edən şəxslər özlərini küçə uşaqları kimi aparırlar. Yəni ölkəmizdə nə isə bir xoşagəlməz vəziyyət yaratmaq üçün əllərindən gələni edirlər. Demək olar ki, güclü Azərbaycan dövlətinin uğurlarını həzm edə bilməyən xarici qüvvələr ölkəmizlə bağlı öz məkrli istəklərini həyata keçirmək üçün müxalifət təmsilçilərindən alət kimi istifadə edirlər. Ancaq heç vaxtı onlar öz məkrli istəklərinə çata bilməyəcəklər. Çünki onların gücü çatmaz ki, ölkəmizdə xoşagəlməz bir vəziyyət yaratsınlar.

***GÜLYANƏ***

## Ağdaş və Qobustan rayon sakinlərindən sənədləri olmayan ov tüfəngləri aşkarlanaraq götürülüb

Ağdaş Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Aşağı Ləki kənd sakini T.Abdullayevdən müvafiq sənədləri olmayan “TOZ-16” markalı ov tüfəngi aşkarlanaraq götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Qobustan Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində isə Ərəbşalbaş kənd sakini Ə.Şahvələdovda sənədləri olmayan “TOZ-16” markalı ov tüfəngi aşkarlanıb.

## Paytaxtın istehlak bazarında 19,7 milyard manatlıq məhsul satılıb



Bu ilin yanvar-sentyabr aylarında paytaxt əhalisinin tələbatlarının ödənilməsi məqsədilə istehlak bazarında satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 19 milyard 778,4 milyon manat olmaqla ötən ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 3,3 faiz artıb.

Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata görə, satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi həcminin 95,4 faizini qeyri-dövlət sektoru təşkil edib. Bu bölmə üzrə pərakəndə ticarət dövriyyəsinin və ödənişli xidmətlərin dəyəri əvvəlki ilin eyni səviyyəsini real ifadədə 2,9 faiz üstələyərək 18 milyard 874,3 milyon manat olub. Hesabat dövründə hüquqi şəxs statuslu müəssisələrdə satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 19,2 faiz artaraq 7 milyard 527,2 milyon manat təşkil edib.

# Ümumbəşəri sərvətə çevrilən Azərbaycan xalçalarına dünya bazarında tələbat artır

***Xalçaçılıq sənətinin inkişafı istiqamətində ardıcıl işlər görülməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə tikilən xalça fabrikləri bu sahənin inkişafına istiqamətlənib. Dövlət hesabına tikilən fabriklər lazımi avadanlıqlarla təchiz olunur. “Xalçaçılıq bizim milli sənətimizdir, eyni zamanda, xarici bazarlara çıxışı olan məhsuldur, ölkəmizə valyuta gətirən sahədir, işsizliyi, xüsusilə, qadınlar arasında işsizliyi aradan qaldıran sahədir” deyən Azərbaycan Prezidenti İlham Əliyev hər fabrikdə təqribən 150 iş yeri yaradıldığını bildirib.***

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahənin daha da inkişafı ilə bağlı qəbul etdiyi qərarlar isə bu baxımdan, xüsusilə, əhəmiyyətlidir. Məlumdur ki, Azərbaycan Prezidentinin 2016-cı ilin 5 may tarixli Sərəncamı ilə “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti yaradılıb. Cəmiyyət xalçaçılığı inkişaf etdirərək, ölkədə bu istiqamətdə güclü sənaye potensialı yaratmağı qarşısına məqsəd qoyub. “Azərxalça” ASC-nin yaradılmasının əsas məqsədlərindən biri, məhz xalça və xalça məmulatlarının istehsalı, onların ölkə daxilində və xaricdə satışının təşkili, istehsalatda yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə, bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsidir. Bu gün “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti dünyanın müxtəlif muzeylərində, şəxsi kolleksiyalarda saxlanılan qədim xalçalarımızı aşkara çıxararaq, onların çeşniləri əsasında yeni xalçalar toxuyur. Cəmiyyət dünya muzeylərində, kolleksiyalarda saxlanılan, müxtəlif vaxtlarda hərraca çıxarılaraq satılan Azərbaycan xalçaları barədə məlumat bazası da yaradır. Vyanada, Londonda, Nyu-Yorkda və digər ölkələrdə keçirilən hərraclarda XVIII və XIX əsrlərdə toxunmuş Azərbaycan xalçalarının satışı ilə bağlı məlumatlar əldə edib. Məlum olub ki, “Qarabağ”, “Qazax-Borçalı”, “Təbriz”, “Quba” qruplarına aid olan xalçaların ən ucuzu 10 min avroya, ən bahalısı isə 233 min ABŞ dollarına satılıb. Azərbaycan xalçaları 2016-cı il noyabrın 20-də keçirilən “Grogan” hərracında da satışa çıxarılıb. Hərracda ABŞ və Avropa ölkələrindən olan alıcılar iştirak edib və “Grogan”da satışa çıxarılan bu xalçalar, ümumilikdə, 744 min 200 ABŞ dollarına satılıb. 1810-cu ildə toxunmuş Quba namzalıq xalçasını hərracda ən baha qiymətə - 61 min ABŞ dollarına Boston İncəsənət Muzeyi alıb. “Azərxalça” hərraclarda satılan xalçaların çeşniləri əsasında yeni məhsullar istehsal edir. Müasir Azərbaycan xalçaçıları tarixi yaddaşın, qədim çeşnilərimizin bərpası ilə milli dəyərlərimizə sahib çıxdıqlarını nümayiş etdirirlər.



“Azərxalça”nın xətti ilə ölkəmizdə yeni fabriklər istifadəyə verilib. Artıq ilk məhsullar, “Azərbaycan brendi” olaraq, beynəlxalq sərgilərdə nümayiş olunur, əl ilə toxunmuş yeni Azərbaycan xalçalarına dünya bazarlarında tələbat böyükdür. Azərbaycan xalçalarının Bakı, Qarabağ, Naxçıvan, İrəvan, Təbriz, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı qruplarına aid 300-dən çox xalça çeşnisi hazırlanıb və onların bir qismi istehsalatda tətbiq edilib. Dünya muzeylərində və kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalça və xalça məmulatları əsasında çeşnilərin hazırlanmasına üstünlük verilir.

ASC-nin ilkin mərhələdə yaradılan Füzuli, Şəmkir və Quba kimi rayon filialları artıq tam gücü ilə fəaliyyət göstərir. Bütün bu işlər Azərbaycanda xalçaçılığın inkişafına böyük təkan verir və həmin sahəni stimullaşdırır. Qəbələ, İsmayıllı, Qobustan filiallarında Şirvan, Abşeron və Nardaran filiallarında isə Bakı qrupu Azərbaycan xalçalarının toxunmasına üstünlük verilir. 2017-ci ildən məhsul istehsal olunan İsmayıllı və Qəbələ filiallarında indiyədək 1336, ötən il fəaliyyətə başlayan Qobustan, Abşeron və Nardarandakı emalatxanalarda isə, 441,4 kvadratmetr xalça toxunub. Filiallarda çalışan peşəkar toxucular qədim xalçaçılıq ənənələrinə, dünya bazarının tələblərinə uyğun xalçalar toxuyurlar.

Xalçaçılığın inkişafı iqtisadi cəhətdən də ölkəmizi gücləndirir, eyni zamanda, ölkəmizin dünyada təbliğində ən öndə gedən sənət növlərindən biridir. Azərbaycan xalqının mənəvi dünyasını, gözəllik duyumunu, fitri istedadını, dünyaya fəlsəfi baxışlarını sirli naxışlarda yaşadan Azərbaycan xalça sənətinin qədim tarixi vardır. Yarandığı ilkin dövrlərdə tələbatı ödəyən, yeni köçmə həyat tərzi keçirən insanların çadırlarında örtük, döşənək, pərdə və s. kimi istifadə edilən xalça getdikcə yüksək bədii əhəmiyyət kəsb etmiş, insanların estetik ehtiyacına cavab vermiş, onların həyatının ayrılmaz hissəsi və istehsal fəaliyyətlərinin aparıcı növü olmuşdur.

Azərbaycan xalçası, tarixən, ixrac məhsulu olmuşdur. Bu xalçalar XIV əsrdən başlayaraq, Avropaya aparılmışdır. Bu gun dünyanın bir çox muzeylərini və şəxsi qalereyalarını bəzəyən Azərbaycan xalçaları ümumbəşəri sərvətə çevrilib.

***Zümrüd BAYRAMOVA***

# Artıq övladlığa götürmədə yeni sistem tətbiq olunur



Artıq övladlığa götürmə sahəsində fəaliyyətin istiqamətləndirilməsi, müraciətlərin qəbul edilməsi və müvafiq bazanın formalaşdırılması üçün elektron sistem istifadəyə veriləcək. SİA-nın məlumatına görə, övladlığa götürmə ilə bağlı müraciətlər həm DOST Mərkəzində, həm də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron alt sistemi üzərindən qəbul ediləcək.

Övladlığa verilmə üçün qiymətləndirmə çox qısa müddətdə aparılmayacaq, bu, 6 aya qədər davam edən prosedur olacaq. Növbəti proses ailə ilə uşağın tanışlığı, onların neytral ərazidə görüşlərinin təşkili, ünsiyyətlərinə nəzarət edilməsi, uşağın əvvəlcə qısa müddətə, daha sonra daimi şəkildə ailəyə verilməsidir. Burada əsas maraq uşağın hüquqlarının qorunmasıdır. Əsas şərt övladlığa verilən uşağın psixoloji ehtiyaclarından irəli gələrək düzgün ailənin seçilməsidir. O ailənin həm maddi, həm də sosial baxımdan övladı yetişdirə bilmək qabiliyyətinin olmasını düzgün qiymətləndirmək lazımdır. Yeni modelin üstün cəhəti budur ki, gələcək valideynlərlə müsahibələr ediləcək, onlar təlimlərə cəlb olunacaq. Hətta həmin valideyn namizədlər sosial müəssisələrə gedərək uşaqları ziyarət edəcəklər və uyğunlaşma prosesi gedəcək. Ondan sonra uşaq 3 aylıq həmin ailəyə veriləcək. Sosial cəhətdən qiymətləndirmə aparılacaq, əgər o ailə uşağı götürməyə hazırdırsa, rəy əsasında məhkəməyə müraciət ediləcək.

## Ötən gün baş vermiş iki ağır yol-nəqliyyat hadisəsi nəticəsində üç nəfər ölüb

Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün törədilmiş 17 cinayət hadisəsinin üstü “isti izlər”lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış iki cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 31 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 18 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında baş vermiş iki ağır yol-nəqliyyat hadisəsi nəticəsində üç nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 10 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 21 nəfər saxlanılıb.

## Donald Tramp yaşayış yerini Nyu-Yorkdan Floridaya dəyişib



ABŞ Prezidenti Donald Tramp daimi yaşayış yerini Nyu-Yorkdan Florida ştatının Palm-Biç şəhərinə dəyişdiyini təsdiqləyib. ABŞ prezidenti bu barədə məlumatı özünün “Twitter” səhifəsinə yerləşdirib.

“Mən və ailəm Palm-Biç şəhərini daimi yaşayış yeri edəcəyik. Nyu-Yorku və onun sakinlərini sevirəm. Hər il şəhərə, ştata və yerli hakimiyyətə milyonlarla dollar vergi vermək məcburiyyətindəyəm, lakin həm şəhərin, həm də ştatın siyasi liderləri mənə pis münasibət bəsləyir. Prezident kimi hər zaman Nyu-Yorka və onun sakinlərinə kömək etməyə hazıram. O, hər zaman qəlbimdə xüsusi yerə malik olacaq”, - dövlət başçısı “Twitter”də belə yazıb.

# "Sosial bağlar" layihəsi çərçivəsində daha 250 ailə üçün meyvə bağları salınır



***Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən inkişaf strategiyası, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, təhlükəsizliyin, sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər dövlətimizin qüdrətinin artmasını və xalqımızın rifah halının yüksəlməsini təmin edib.***

Dövlət başçısının rəhbərliyi ilə regionların inkişafı strategiyasının uğurla həyata keçirilməsi, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrası ölkəmizin sosial-iqtisadi inkişafına müsbət təsirini göstərib. Bu uğurların əldə olunmasında, mühüm layihələrin reallaşdırılmasında Heydər Əliyev Fondunun da rolu müstəsnadır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva ölkəmizin sosial-iqtisadi, xalqın maddi rifahının yaxşılaşdırılmasına dəstək verən, eləcə də, tariximizin və Azərbaycan həqiqətlərinin bütün dünyada tanıdılması istiqamətində müxtəlif proqram və layihələr reallaşdırır. Bu və ya digər sahələrlə yanaşı, sosial məsələlərin həllinə, sosial cəhətdən həssas qrupların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirlərinə də dəstək verilməsi üçün fond tərəfindən ardıcıl və əhatəli layihələr və proqramlar həyata keçirilir. Fondun xüsusi qayğıya ehtiyacı olan və əlilliyi olan şəxslərlə bağlı bu günədək reallaşdırdığı layihələr arasında Bakıda və regionlarda reabilitasiya mərkəzlərinin və müəssisələrinin yaradılması mühüm yer tutur. Valideyn himayəsindən, ailə qayğısından məhrum olan uşaqların cəmiyyətə inteqrasiyasına dəstək, onların asudə vaxtının səmərəli təşkili üçün, mütəmadi olaraq, həyata keçirilən tədbirlər də Heydər Əliyev Fondunun diqqət mərkəzində saxladığı məsələlərdəndir.

### ÖZÜNÜMƏŞĞULLUQ PROQRAMI AZTƏMİNATLI AİLƏLƏR ÜÇÜN KİÇİK AİLƏ BİZNESİNƏ ÇIXIŞIN TƏMİNATINA YÖNƏLİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə təsis edilən "Regional İnkişaf" İctimai Birliyi də vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli layihələr reallaşdırıb. Bölgələrdə yaşayan vətəndaşların üzləşdiyi problemlərin, yerli əhalini kompleks şəkildə narahat edən məsələlərin aradan qaldırılması kimi məsələləri əsas məqsəd kimi qarşıya qoyaraq elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, ekologiya, İKT və infrastruktur layihələri həyata keçirir. Mehriban xanım Əliyevanın vurğuladığı kimi, bizim həyata keçirdiyimiz hər bir layihə, ilk növbədə, vətəndaşların maraqlarını qorumağa və köməyə ehtiyacı olan insanlara yardım etməyə yönəlib.

Qeyd edək ki, "Regional İnkişaf" İctimai Birliyi, qısa bir vaxt ərzində, regionların həyatında mühüm rol oynayıb. RİİB-in regionlarda ictimai nəzarətin həyata keçirilməsində, region sakinləri ilə dövlət və bələdiyyə orqanları arasında dialoqun inkişaf etdirilməsində göstərdiyi təşəbbüslər də diqqətəlayiqdir. Təbii ki, bütün görülən işlər Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdən qaynaqlanır. Bildiyimiz kimi, görülən işlərin davamı olaraq, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında özünüməşğulluq proqramının icrası sahəsində əməkdaşlığa dair imzalanan Memorandum da Prezident İlham Əliyevin sosial inkişaf kursunun yüksək səviyyədə həyata keçirilməsində Heydər Əliyev Fondunun fəal iştirakının növbəti göstəricisidir. İmzalanan Memoranduma əsasən, fondun "Regional İnkişaf" İB özünüməşğulluq proqramının icrasında ƏƏSMN ilə əməkdaşlıq etməklə intensiv meyvə bağlarının, tərəvəz və bostançılıq təsərrüfatlarının yaradılmasına artıq öz dəstəyini verir. Özünüməşğulluq proqramı aztəminatlı ailələr üçün kiçik ailə biznesinə çıxışın təminatı ilə yanaşı, ölkədə kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəlib.

### "SOSİAL BAĞLAR" LAYİHƏSİ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINA ÖZ DƏSTƏYİNİ VERMƏKDƏDİR

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin birgə icra etdiyi "Sosial bağlar" layihəsinin, ikinci mərhələsi kimi, daha 250 ailə üçün meyvə bağları salınır. Özünüməşğulluq proqramına dəstək məqsədi daşıyan layihənin, ilk mərhələsi kimi, ötən il 37 rayonda 125 aztəminatlı ailə üçün müasir meyvə bağları, tərəvəz və bostançılıq təsərrüfatları yaradılaraq, onların istifadəsinə verilib. Layihənin ikinci mərhələsində, bundan iki dəfə çox olmaqla, 250 ailə intensiv meyvə bağlarına sahib olacaq. Bunun üçün hazırda müxtəlif relyefə, coğrafi əraziyə və struktura malik 195 hektar torpaq sahəsinin şumlanaraq əkin üçün hazır vəziyyətə gətirilməsi, 143 minə yaxın müxtəlif məhsuldar meyvə tinglərinin əkilməsi, sahələrdə müasir damlama-suvarma sistemlərinin quraşdırılması, təsərrüfatların mineral və üzvü gübrələrlə təmin edilməsi işləri aparılır. 22 hektardan çox ərazinin köhnə ağac, kötük və kollardan təmizlənməsi, 25 min metrdən çox məsafədə dayaqların basdırılması və çəpər çəkilməsi də görülən işlər sırasındadır. Bağ təsərrüfatlarının suvarılması, aqrotexniki qulluq, məsləhət xidmətlərinin göstərilməsi, logistika və hazır məhsulun satışının təşkili istiqamətlərində də ailələrə dəstək göstərilməsi təmin olunacaq.

"Sosial bağlar" layihəsi daha 250 aztəminatlı ailənin özünüməşğulluğu və kiçik ailə biznesinə keçidinin təmin edilməsinə, eyni zamanda, yeni bağçılıq sahələrinin yaradılması ilə qeyri-neft sektorunun mühüm sahəsi olan kənd təsərrüfatının inkişafına öz dəstəyini verməkdədir.

Bir sözlə Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik-hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür və bütün istiqamətlərdə böyük inkişaf müşahidə olunur.

***Zümrüd BAYRAMOVA***

## Hərbi və xüsusi rütbəli şəxslərin pensiyalarının ödənişi artıq başa çatdırılıb



***Prezident İlham Əliyevin müvafiq sərəncamları əsasında hərbi və xüsusi rütbəli şəxslərin vəzifə və rütbə maaşlarındakı artımlarla əlaqədar bu kateqoriyadan olan pensiyaçıların pensiyalarında artımlar edilib.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, həmin pensiyaların sentyabr və oktyabr aylarının artımları ilə birgə ödənişi artıq başa çatıb. Pensiya vəsaitləri onların bank hesablarına köçürülüb.

Beləliklə də, qeyd edilən şəxslərdən ibarət xeyli sayda şəxsin pensiyasının artırılması ilə bağlı hesablama və artımların tətbiqi böyük iş yükü yaratmasına baxmayaraq, bu işlər qısa müddətdə yerinə yetirilib. Nəticədə onların pensiyalarının hər hansı gecikməyə yol verilmədən, əvvəlki aylarda olduğu kimi, ayın sonunadək ödənişi təmin olunub. Müəyyən edilmiş qrafik üzrə həmin pensiya ödənişləri ötən dövrdə hər ayın 26-dan ayın sonunadək aparılıb.

## Suriyada bir türk hərbçisi şəhid olub, altısı yaralanıb



Türkiyə Silahlı Qüvvələrinin Suriya ərazisində həyata keçirdiyi "Sülh çeşməsi" antiterror əməliyyatında iştirak edən hərbçilərdən biri şəhid olub, altısı yaralanıb. Türkiyənin Milli Müdafiə Nazirliyinin saytında yer alan xəbərdə deyilir ki, hadisə terrorçuların əvvəlcədən basdırdıqları partlayıcı qurğunun işə salınması nəticəsində baş verib. Türkiyə Hərbi Hava Qüvvələri isə İraqın şimalında Kandil və Haftanin bölgələrində terror düşərgələrinə qarşı daha bir uğurlu əməliyyat keçiriblər. Dəqiq aviazərbələr nəticəsində üç nəfər PKK terrorçusu məhv edilib.

## Gəndob-Yalama yolunda baş verən qəzada ölənlərin sayı iki nəfərə çatıb

Oktyabrın 31-i axşam saatlarında Gəndob-Yalama yolunda baş verən qəzada ölənlərin sayı iki nəfərə çatıb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, yolun Şabran rayonunun Ağalıq kəndi ərazisindən keçən hissəsində qeydə alınan hadisə zamanı ağır yaralanan sürücü Vasif İsmayılova Xaçmaz Mərkəzi Rayon Xəstəxanasında müvafiq tibbi yardım göstərilsə də, onun həyatını xilas etmək mümkün olmayıb.

Vasif İsmayılovun həyat yoldaşı, Şabranın Udulu kənd sakini, 1984-cü il təvəllüdlü İsmayılova Könül Rəsul qızı isə hadisə yerində ölüb. Qəza zamanı "VAZ 2106" markalı nəqliyyat vasitəsi ilə "Hyundai" markalı yük maşını toqquşub. Faktla bağlı araşdırma aparılır.

# Əli Kərimlinin “gənclər siyasəti”

## Yaxud bu “siyasət” nəticəsində AXCP sədri - boş yerə çənə döyən keçi

***AXCP sədri Əli Kərimlinin “gənclər siyasəti” barədə çox yazılıb, çox danışılıb. Lakin onun bu “siyasətinin” xalqa və dövlətə hansı “səmərələr” verməsi də kimsəyə sirr deyil. Siyasi dividendinin artırılması üçün özü və yaxın ətrafı tərəfindən tələyə salınan gənclərin sonrakı aqibətləri barədə də, yəqin ki, ictimai rəy kifayət qədər məlumatlıdır. Aldıqları ali təhsillərini yarımçıq buraxan, həyatlarının ən vacib nöqtəsində beyinlərinə “kərimovçuluq” zəhəri yürüdülərək, gələcəklərini böyük sual altında qoyan gənclərin hər birinin üzərində AXCP sədrinin və onun yaxın ətrafının günahları böyükdür.***



Əgər belə olmasa idi, Ə.Kərimli uzun illərdir ki, sədri olduğu AXCP-də düzgün “gəncləşmə siyasəti” apararaq, normal müxalifətçilik və siyasətçilik faktorlarını ortaya qoyaraq, demokratik prinsiplərə əməl etdiyini sübuta yetirmiş olardı. Ancaq bütün bunlar baş vermir və görünən budur ki, gələcəkdə də baş verməyəcək. Çünki Ə.Kərimli irəli çəkəcəyi gənclərin sonradan ona badalaq gəlmələrindən qorxur. Qorxduğu və hürkdüyü üçün də partiyadaxili diktatorluq və avtoritar idarəçilik metodunu əsas vəzifə kimi sürdürüb, bacardığı qədər gənclərin potensiallarından öz xeyrinə istifadə etməyə səy göstərir.

### Bu gün Əli Kərimlinin ən yaxın adamlarına da gün kimi aydındır ki, onlar heç vaxt hakimiyyətə yiyələnə bilməyəcəklər

Əli Kərimli şəxsi mənfəətlərini artırmaq, pul-para, qrantlar əldə etmək üçün Qərbin bir sıra qaranlıq siyasi dairələri, erməni lobbisi, eləcə də, digər anti-Azərbaycan xarakterli qüvvələr qarşısında, məhz aldatdığı, gənclərdən istifadə edib, istədiyini almağa çalışır. Məsələn, açıq şəkildə mübarizə meydanına çıxmaqdan ehtiyat edən Əli Kərimlinin həm də “facebook” xəstəsi olması da kimsəyə sirr deyil. Vaxtaşırı müxtəlif məsələlərə öz təsiri fonunda don geyindirən Əli Kərimlinin sosial şəbəkədədi müəyyən qeydləri ictimailəşdirildikdən sonra, məhz tələsinə düşən gənclər onun sözlərinə tərif yağdırırlar. Ancaq Əli Kərimlinin yanlış siyasətini tənqid edənlərə qarşı təhqirlərə, söyüşlərə start verilir ki, bu işi də həmin tələyə düşən gənclər həyata keçirirlər. Əvəzində isə, Əli Kərimli həmin gənclərə boş vədlər verir, guya gələcəkdə “hakimiyyətə gəldiyi zaman” bu gənclərə xüsusi diqqət ayıracağını bildirir. Fəqət, bu gün, hətta Əli Kərimlinin ən yaxını sayılan Fuad Qəhrəmanlıya, Gözəl Bayramlıya, Əbülfəz Qurbanlıya, Həsən Kərimova, eləcə də, digər axecerpeçilərə də gün kimi aydındır ki, onlar heç vaxt hakimiyyətə yiyələnə bilməyəcəklər.

### Əli Kərimli özü gəncləri əzir

Bu arada AXCP-də uzun illər canını qoymuş, həbslərə düşmüş insanlar, Əli Kərimlinin sabiq tərəfdarları da, onun iç üzünü ifşa etməkdə davam edirlər. Məsələn, Nərimanov rayon təşkilatı sədrinin sabiq müavini Dəyanət Babayev də mətbuata açıqlamasında deyib ki, hazırkı AXCP rəhbərliyi dəyişməli, gəncləşməlidir: “Biz istəyirik ki, AXCP demokratik təşkilat olsun. 25 ildən çox bir partiyanın rəhbəri qalmaq olmaz. Buna görə də, Əli Kərimli etiraf etməlidir ki, bacarmır və yerini gənclərə verməlidir. Hakimiyyətə gənclərlə bağlı mesajlar göndərməkdənsə, öz partiyasında olanlara baxmalıdır. Əli Kərimli özü gəncləri əzir”.

### Gənclər Əli Kərimlini keçi obrazında ictimaiyyətə təqdim edib

Nəhayət ki, Ə.Kərimlinin təsiri altına düşən gənclər satqın və əxlaqsız AXCP sədrinin iç üzünü görə bildi. Belə ki, sosial şəbəkə aktivistləri Ə.Kərimlinin keçirməyə cəhd etdiyi qanunsuz aksiyadakı görüntülərini müxtəlif səslərlə montaj edərək, maraqlı videoçarxlar hazırlayıb. Videoçarxlarda Əli Kərimli keçi rolunda, təzə gəlin obrazında montaj edilərək yayımlanıb. İctimai fəallar Əli Kərimlinin durumunu iflasa uğramış Hitler, ac-yalavac keçi və digər obrazlara bənzədərək onun gülünc mövqeyini ictimaiyyətə təqdim ediblər. Onlar bu çarxlarla Ə.Kərimliyə mesaj göndərərək Azərbaycanda gedən iqtisadi inkişafa nəzər salmağa çağırıblar. Gənclər bu videolarla onun hansı statusa malik olduğunu bildirməklə, bu əxlaqsız partiya sədrinə çatdırmaq istəyiblər ki, hər hansı aksiya və ya mitinq şouları heç nəyi dəyişə bilməyəcək, ictimaiyyəti çaşdırmağa yönələn cəhdləri həmişə iflasa uğrayacaq. Videolardan görünür ki, ictimaiyyət Ə.Kərimlini iflasa uğramış faşist Hitleri, boş yerə çənə döyən keçi kimi qəbul edir, onun verdiyi mənasız bəyanatlara əhəmiyyət vermir.

### Siyavuş Novruzov: “Baş verən hadisələrin ardıcıllığı göstərir ki, radikal müxalifət xarici qüvvələrə satılıb”

“Azərbaycanda radikal müxalifətçilər şəxsi maraqlarını cəmiyyətin maraqlarından üstün tuturlar. Bu insanların, ardıcıl olaraq, qanunsuz aksiyalar keçirməyə cəhd etmələri göstərir ki, onlar Azərbaycanda həyata keçirilən islahatları istəmir, ölkəmizin inkişafından narahatdırlar”.

Bu sözləri YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov vurğulayıb: “Radikal müxalifətin satqınlığını sübut edən daha bir fakt onların ABŞ Konqresinin Nümayəndələr Palatasının qondarma “erməni soyqırımı”nı tanımasına səssiz qalmalarıdır. Nə Ə.Kərimli, Gültəkin Hacıbəyli, Leyla Yunus, Ramiz Yunus, Sevinc Osmanqızı, nə də başqaları bu barədə bir kəlmə də demədilər. Hadisələrin bu cür ardıcıllıqla baş verməsi, heç bir halda, təsadüf ola bilməz. Bütün bunlar göstərir ki, radikal müxalifət bir mərkəzdən idarə olunur, həmin mərkəzdən aldığı tapşırıqlar əsasında hərəkət edir”.

S.Novruzov onu da vurğulayıb ki, xalq hər şeyi yaxşı bilir: “Azərbaycan xalqı bütün bunları gözəl başa düşür ki, radikal müxalifətin qanunsuz aksiyalar keçirməkdə məqsədi xarici qüvvələrin göstərişi əsasında ölkədə olan sabitiyi, əmin-amanlığı və inkişafı pozmaqdır. Ona görə də, xalq bu separatçılara, millətini satanlara heç bir dəstək vermir və radikal müxalifəti boykot edir. Radikal müxalifət bu günə qədər necə uğursuzluğa düçar olubsa, bundan sonra da olacaq”.

### Belə şeytanlara qarşı isə siyasi mövqeyindən, baxışından asılı olmayaraq, hər kəs daş atmalıdır

Nəticə isə çox faydalıdır. Məsələn, Ə.Kərimli və “Milli Şura”, istər piket formasında keçirdikləri, istərsə də icazəsiz mitinqlərlə heç bir şeyə nail olmayıb, olmayacaq da! Ona görə də, bu gün düşərgədə onun barəsində bir fikir formalaşıb - Ə.Kərimli müxalifəti pis günə qoyan xəyanətkar və şəxsi ambisiyaları uğrunda, hətta yaxın çevrəsini satmağa hazır olan siyasi şeytandır. Belə şeytanlara qarşı isə siyasi mövqeyindən və baxışından asılı olmayaraq, hər kəs daş atmalıdır.

***Rəfiqə HÜSEYNOVA***

# Əli Kərimlinin “ağlı” və “vicdanı” izafi şəkildə “aşıb-daşır”



RƏFİQƏ

***Düzü, Azərbaycan dövlətinin son illər, ardıcıl olaraq uğurlar əldə etməsi, ermənilərdən də betər dağıdıcı müxalifət liderlərini hələ də qaşındırır. Çünkisi də budur ki, əgər belə olmasaydı, həmin “liderlər” dərhal özlərinə yaraşan tərzdə hərəkət edərək, yəni klounluq edərək, cəmiyyət içində özləri-özlərini biabır etməzdilər. Soruşa bilərlər ki, kimlərdir bu klounluq edən və yaxud da canına bit-birə düşənlər, qaşınanlar? Cavabı bəllidir. Əlbəttə ki, bu kloun “cəbhə” sədri Əli Kərimlidir. AXCP sədri yenə də bu uğurlara kor olan gözləri görmədiyi üçün, lupa ilə gözlərini bərəldib izləyir. Bədbəxt sizlərə.***

Burda deyirlər ki, “qaşınmayan yerdən qan çıxarmaq”. AXCP sədri yenə də axtarış apararaq, elə zənn edir ki, bu axtarışı ilə “çox “böyük kəşf edib”. Ə.Kərimli mitinq çağırışlarının bir nəticə vermədiyini görüb, indi də başlayıb boş başı, bərəlmiş gözləri ilə yenidən sosial şəbəkədə status paylaşmağa. Ancaq bu yerdə AXCP sədri bir məsələni unudub. Məsələn, AXCP sədri iddia edəndə ki, bəs “dövlətin keçirdiyi müşavirədə iştirak edənlərin əksəriyyəti mürgüləyib”, bax onda həmin iddiasında, sözün həqiqi mənasında, klounluq edir!

Partiya funksionerləri də bildirirlər ki, bütün bu mənfi tendensiyaların inkişafında dağıdıcı rolu ilə yadda qalan AXCP sədri Ə.Kərimli öz çirkin oyunları ilə, bütövlükdə, müxalifət düşərgəsini məhvə doğru aparır. Bu yerdə Ə.Kərimlinin qadın müşaviri Zemfira Məhəddinova istefa verərək, onunla yola getmədiyini, vəzifəsindən getməyə məcbur qaldığını bildirərkən demişdi ki, bu, son olmayacaq: “Əli Kərimlinin iddialarından daha çox əziyyət çəkən onun bu gün də rəhbərlik etdiyi AXCP oldu. Əbülfəz Elçibəy sağlığında qeyri-formal fəaliyyəti ilə “cəbhə”çilər arasında həmişə ikrah hissi ilə xatırlanan Ə.Kərimli qruplaşması cəbhə liderinin vəfatından sonra əl-qol açaraq, AXCP-dəki partiyadaxili müxalifəti dağıtmaq üçün əlindən gələni əsirgəməyib və “Azadlıq” redaksiyasında, həmçinin, bir çox qəzetlərdə fəaliyyət göstərən yazarlar dəstəsi formalaşdırmaqla erməni sevdasını öz yazıları ilə bir daha göstərməkdədir”.

Bu yerdə ataların dediyi söz yadıma düşdü: “Axsaq atın kor nalbəndi olar”. Bəli, “Azadlıq” qəzetini demək istəyirəm. Bu qəzetdə Ə.Kərimli gizli imzası ilə nə qədər erməni sevdalısı olduğunu etiraf etmiş olub. Belə ki, “Azadlıq” qəzetinin mirzəciyi İlham Hüseyn bir köşəsində yazırdı ki, sən demə, “vicdan” və “erməni” sözləri sinonimiymiş. İqtidar mənsublarının da onları və “liderləri-ni” - Əli Kərimlini ermənipərəst, yaxud da erməni adlandırması, elə onların (cəbhəçilərin) “vicdanlı” olması ilə bağlıymış (?!-R.) O zaman belə bir sual ortaya çıxır - əgər erməni sözü vicdanla sinonimlik təşkil edirsə, demək, Qarabağ savaşında xalqımızın, millətimizin başına gətirilənlər - Xocalıda, Qaradağlıda, Malıbəylidə, Bağanıs-Ayrımda törədilən qətliamlar “vicdanlı” ermənilərin qanlı əsərləridir?! Görünür, başda Əli Kərimli olmaqla. bunların hamısı “vicdan” dağarcığı olaraq, hələ çox buna bənzər etiraflar etmiş olacaqlar. Hələ onların içindən çox Azər Əhmədovlar, Qan Turalılar, Qənimət Zahidlər, Kəmalə Bənənyarlılar və sair “vicdanlılar” çıxacaq!

# Mobil telefonların ölkəyə qanunsuz yolla gətirilməsi cəhdinin qarşısı alınıb

Dövlət Gömrük Komitəsinin Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinin əməkdaşları mobil telefonların qanunsuz yolla ölkəyə gətirilməsi cəhdinin qarşısını alıblar. Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Dubay-Bakı aviareysi ilə gələn Azərbaycan vətəndaşı “Qırmızı Kanal” buraxılış sistemindən istifadə edərək əşyalarını rentgen aparatından keçirdikdən sonra saxlanılaraq yoxlama otağına dəvət olunub. Şəxsi yoxlama zamanı üzərindəki köynəyin sol və sağ qollarının altından, hər birində 2 ədəd olmaqla sellofan paketə bükülü şəkildə gömrük nəzarətindən gizlədilən 4 ədəd “iPhone 11 Pro 256 GB” markalı mobil telefon aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.



# Müxalifətin birləşməsi qaranlıq otaqda birə axtarmağa bənzəyir

***Pərakəndə dağınıq halda olan müxalifətin birləşdirilməsi üçün yeni bir cəhd-Müsavat başqanı Arif Hacılı düşmən gözündə gördüyü partiya sədrlərini, hətta cinayətkar olub həbsdə yatmış keçmiş ünsürləri, bir araya gətirərək, birlik modelini yaratmaq ideyası ilə çıxış edib. Sizcə, müxalifətin indiki vəziyyətdə birlik modeli yaratması nə dərəcədə inandırıcıdır? Söhbət etdiyimiz müsahiblərimiz müxaliflərin bir-birini qəbul etmədiklərindən, A.Hacılının ideyasının reallaşmasının mümkünsüz olduğunu bildirdilər.***

### Təkamül partiyasının sədri Teyyub Qənioğlu: "Müxalifətin bir araya gəlməsi çətin məsələdir "



- Qarşıdan parlament seçkiləri gəlir. Bu seçkilər ərəfəsində ayrı-ayrı siyasi partiyaların hər hansı bir ciddi uğur qazanması sual altındadır. Belə olan halda da, müxalifət tərəfindən blok və qurumların yaradılmasına cəhdlər göstəriləcək. Amma yaradılması planlaşdırılan bloka kimi dəvətə edəcəklər və kim burada iştirak edəcək, bunlar müəmmalıdır. Müəyyən konyektur maraqlara görə, bir müddət də bu birlik mövcud ola bilər. İstər Müsavat, istər AXCP rəhbərliyi bir-birləri haqqında o qədər qurşaqdan aşağı ifadələr işlədiblər ki, bu baxımdan, adları çəkilən şəxslərin bir araya gəlməsi çətin məsələdir.

Əgər onlar tərəfindən yaradılan bu birlik alınsa, bir yerdə ola bilərlər. Amma bu birlik uğursuzluğa düçar olsa, bir-birlərini ittiham edəcəklər. Yeni başlayacaqlar bir-birlərini günahkar çıxarmağa. Digər tərəfdən də, birliyin yaradılması xarici qüvvələr tərəfindən verilən növbəti tapşırıqdır ki, gedin birləşin. Çünki heç kəsə sirr deyil ki, bu gün Azərbaycanı istəməyən və ölkədə qarışıqlıq salmaq istəyən qüvvələr var. Ancaq onların birliyi alınmayacaq.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "26 ildir müxalifətin anormal təfəkkürü dəyişmir"

- Ümumiyyətlə bu gün Azərbaycanda, siyasi mənada, standartlara cavab verən sivil müxalifət deyilən bir qurum yoxdur. Müxalifət düşərgəsində qalan vaxtı ilə AXCP və Müsavat partiyalarının üzvləri olmuş, sonradan bir-birini ittiham edərək ayrılmış və müxtəlif partiyalar yaratmış, bu gün özü və möhürü qalmış şəxslərdir. Bu insanlar da 26 ildir gündəmi ya hansısa iftira ilə, yaxud qeybət ilə saxlayan insanlardır. 26 ildir ki, xalq bunların müxtəlif adlarla birlik adı ilə yaratdıqları təşkilatların artıq sayını belə xatırlamır. Bu gün olduğu kimi ya Müsavat ya AXCP birlik adı ilə birgə çıxış edir və bu, əsasən, seçki ərəfələrində baş verir. Yığışırlar, bir ad verirlər, hay-küylə xaricdən qrant alırlar, sonra qarşılıqlı ittihamlar, qaragüruh və s. sonra da iflas. 26 ildir müxalifətin anormal təfəkkürü dəyişmir. Təcrübədən bilirik ki, müxtəlif sahələrdə çalışan insanlar, heç olmasa, ən azı, 5 ildən bir müxtəlif təkmilləşmə kursları keçir. Siyasət də bir elmdir, siyasətçi də bir peşədir. Bu insanların kurs keçdikləri yer ancaq çayxanadır və orada keçirdikləri təlimləri isə qiybətdir. Bunlara bir məsləhət vermək istərdim, o xarici havadarlarından maliyyə yardımı ilə bərabər, biri muzdlu siyasətçi də xahiş etsinlər, gəlib bunlara müasir dünyanın sivil siyasət qaydalarını izah etsin. Bəlkə ondan sonra utanıb əl çəkərək, gedib təsərrüfat qurub faydalı işlərlə məşğul olardılar. Fikrimcə, bunların siyasi modeli olmadığı kimi, birlik modelləri və birləşmə etikaları da yoxdur. Bütün çağırışları və nəsə etmək planları elə ilkindən iflasa məhkumdur. Xalqı aldatmağı düşünməsinlər, xalqımız ağıllı və müdrik xalqdır, ağıqaradan seçməyi çox gözəl bacarır.



### "QHT.az" saytının rəhbəri, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə: "Müxalifət həm keyfiyyət, həm də kəmiyyət baxımdan, nəinki inkişaf edib, əksinə, geriləyib"

- 1993-cü ildən müxalifət düşərgəsində bu tip tendensiyalar mövcud idi. Eyni tendensiya, illərdir davam edir. Etiraf edək ki, o vaxt Əbülfəz Elçibəy faktoru, müəyyən mənada, bu fikirlərin irəli getməsində müəyyən rol oynayırdı. Amma son anda Müsavatdakı



və xalq cəbhəsindəki qüvvələr şəxsi mövqelərindən çıxış edərək, bu birliyə öz "töhfə"lərini verirdilər. Sonrakı zaman kəsiyində isə, bu tip çağırışlar formal xarakter daşıyıb. Birlik modelinin yaranması qeyri-real bir məsələdir. Qeyri-real məsələni real hesab etsək də, heç bir şey dəyişmir. Çünki ayrı-ayrılıqda bu partiyaların qüvvələri də çox kiçikdir. Arif Hacılının isə partiya daxilində olan nüfuzu (bu nüfuz özü də çox məhduddu) da, birbaşa İsa Qəmbər ilə bağlıdır. Ölkədə mühüm islahatlar aparılır. Sadəcə, bəzi qüvvələr özlərini də islahatlara "calaq" etmək fikrinə düşürlər. Paralel müqayisə aparsaq, görərik ki, müxalifətin vəziyyəti, bütün hallarda, ürəkaçan deyil. Hakimiyyətin ötən illərdə aparılan islahatları və həyata keçirilən fəaliyyətləri göz qabağındadır, dəyişiklik və inkişaf bütün məqamlarda hiss olunur. Müxalifət isə həm keyfiyyət, həm də kəmiyyət baxımdan, nəinki inkişaf edib, əksinə, geriləyib.

**GÜLYANƏ**

# Geriyə addım və məğlubiyyət reallığı

## İcazəsiz aksiyanın təxirə salınması uduzmağın etirafıdır

***Qaragüruhçu müxalifətin noyabrın 2-də icazəsiz aksiya keçirmək planının sonradan təxirə salmasının arxasında bir reallıq dayanır - uduzmaq və məğlubçuluğun etirafı! Sirr deyil ki, AXCP sədri Əli Kərimli və "Milli Şura"nın sədri Cəmil Həsənli xarici məkrli dairələrin sifarişlərini həyata keçirməklə ölkədə hərc-mərclik və vətəndaş qarşıdurması yaratmağa cəhdlər göstərirlər. Lakin xalqın onları dəstəkləməməsi və rədd etməsi faktı, artıq hər şeyi sübut etdi. Bu, həm də radikallığın, dağıdıcılığın və anarxiyaçılığın məhvidir desək, heç də yanılmarıq.***

### "İnqilab" və "qiyam" kimi məsələləri hər zaman öndə tutan qaragüruhçular dəstəsi yaxşı bilirdi ki, onların çirkin əməllərinə qarşı nəhəng xalq ordusu dayanıb

Ümumiyyətlə, icazəsiz aksiyanın keçirilməsi planı arxasında dayanan amillərdən biri də bu idi ki, Ə.Kərimli müəyyən xarici təşkilatlara və şəxslərlə görüşünü sosial şəbəkədə yayımlayaraq, əslində, milli dövlətçiliyimizə xəyanət etdiyini sübuta yetirdi. Daha dəqiq desək, AXCP sədri xalqı, milləti düşünmədiyini, yalnız şəxsi dividendinə xidmət etdiyini öz dili ilə etiraf etdi. Təbii ki, özünü xalqdan və dövlət maraqlarından təcrid



edən birinə xalq heç vaxt dəstək verməyəcəkdi və vermədi də. Ona görə də, nəticədə, Ə.Kərimli və C.Həsənli cütlüyü geriyə addım atmalı oldu. Həmçinin, "inqilab" və "qiyam" kimi məsələləri hər zaman öndə tutan qaragüruhçular dəstəsi yaxşı bilir ki, onların çirkin əməllərinə qarşı nəhəng xalq ordusu dayanıb və heç vaxt belə əməllərə imkan verməyib, verməyəcək də. Köhnə təfəkkürləri və küçə uşaqları siyasəti ilə düşünən belə müxalifətin rədd edilməsi artıq bir gerçəklikdir.

### Radikal ünsürlərin Azərbaycanda sabitliyi pozmaq, ölkəmizin inkişafına mane olmaq cəhdləri heç bir nəticə vermədi və bundan sonra da verməyəcək!

Beləliklə, demokratiya pərdəsi altında çirkin niyyətlərini həyata keçirmək üçün var qüvvələri ilə səfərbər olan dağıdıcı müxalifətin istəyi və arzusu baş tutmadı. Onların ölkəmiz haqqında beynəlxalq aləmdə mənfi rəy yaratmaq, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlara kölgə salmaq və sabitlik adasına çevrilən ölkəmizin dincliyini pozmaq cəhdləri məhvə məhkum oldu. "Milli Şura"nın başbilənləri anlamağa məhkumdurlar ki, ölkəmizdə xalq-iqtidar birliyi mövcuddur. Xalq dağıdıcı müxalifətin yalan vədlərlə dolu pafoslu sözlərinə inanmır və bu faktor sabitliyi şərtləndirən əsas amildir. Ona görə də, bu radikal ünsürlərin Azərbaycanda sabitliyi pozmaq, ölkəmizin inkişafına mane olmaq cəhdləri heç bir nəticə vermədi və bundan sonra da verməyəcək.

**R.NURƏDDİNOĞLU**

***Əmək hüququnun səmərəli təmin edilməsi istiqamətində həyata keçirilmiş tədbirlər vətəndaşların fərdi və ictimai rifahının ikişafı, həmçinin, mövcud sahədə yol verilən qanun pozuntularının getdikcə aradan qaldırılması baxımından əhəmiyyətlidir. Əmək hüquqlarının pozulması ilə bağlı 960 müraciət daxil olmuşdur. Bu məsələlər sırasında əmək haqqının və son haqq-hesabın ödənilməməsi, işə bərpadan və istehsalatda alınmış xəsarətə görə, dəymiş zərərin ödənilməsindən imtina, əmək müqaviləsinin bağlanılması və ona xitam verilməsi zamanı qanunvericiliyin tələblərinə əməl edilməməsi, ezamiyyət üzrə ödəmələrin aparılmaması, işdən azad edilərkən əmək kitabçasının və əmrin surətinin verilməməsi, işdən azadetmə kimi hallar müşahidə olunmuşdur.***

Müvəkkilin həyata keçirdiyi tədbirlər, o cümlədən, araşdırmalar nəticəsində bir sıra hallarda, işçilərin pozulmuş hüquqlarının bərpasına nail olunmuşdur. Müvəkkil Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun yanında Dövlət Əmək Müfəttişliyi ilə səmərəli əməkdaşlıq etmişdir.

Əmək qanunvericiliyinin tələblərinə zidd olaraq, işdən azad edilmiş şəxslərin şikayətləri diqqətlə

sial-iqtisadi İnkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransdakı yekun nitqində, haqlı olaraq demişdir ki, "Ancaq hesab edirəm ki, əgər iş adamları, bu məsələyə sosial məsuliyyət nöqteyi-nəzərdən yanaşsalar və işsiz qalan insanları işə götürsələr, yaxud ixtisar etmək istədikləri insanları ixtisar etməsələr, onlar ümumi işimizə töhfə verərlər. Çünki bu, sosial məsuliyyətdir. Bu-

Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarıxli 713-IVQ saylı Qanununun 5.3-cü maddəsinin sonuna "Ali təhsilli kimi müvafiq ixtisasa malik olan şəxslərə yalnız onların razılığı ilə yeni ixtisasa yiyələnməsi təklif edilə bilər. Buna razılıq olmadıqda, həmin şəxs münasib iş təklif edilənə kimi, işsiz vətəndaş hesab edilməlidir" cümlələrinin əlavə edilməsini təklif edir.

Əlilliyi olan şəxslərin əmək hü-







*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Azərbaycanda Müvəkkilliyin vətəndaşların iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi

araşdırılmış, bir çox hallarda, vətəndaşlar öz işlərinə bərpa edilmişlər.

Şikayətlərdə əks olunmuş halların yoxlanılması məqsədilə Müvəkkilin səlahiyyətli qurumlara müraciətindən, habelə, aidiyyəti üzrə müdaxiləsindən sonra əmək hüquqlarının digər aspektləri ilə bağlı şikayətlər üzrə də vətəndaşların hüquqları bərpa olunmuşdur.

Təhlillər göstərir ki, bir sıra hallarda təsərrüfat subyektləri, xüsusilə də, özəl müəssisələr ödəmə qabiliyyətini itirdikdə, müflis olduqda, işçilərə əmək haqları borcların ödənilməsində ciddi problemlər yaranır və vətəndaşların əmək hüquqları pozulur.

Həmin problemi nəzərə alaraq, Müvəkkil müəssisənin iflasa uğradığı, yaxud hansısa fəlakət nəticəsində əmlakının məhv olduğu hallar da, müflisləşməsi nəticəsində, ödəmə qabiliyyəti olmadıqda, işçilərə ödənişlərin verilməsi məqsədi ilə, müvafiq təminat sisteminin yaradılmasını və bununla bağlı, zəruri mexanizmlərin hazırlanmasını təklif edir.

Vətəndaşların sosial vəziyyətinə böyük önəm verən ölkə Prezidenti "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sonunla bərabər, artıq mən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Azərbaycan dövlət şirkətlərinə tapşırıq vermişəm ki, birgə işləsinlər. Məşğulluq idarələrinə müraciət edən insanları işlə təmin etmək üçün dövlət şirkətlərində yeni vakansiyalar açılmalıdır."

Ölkə Prezidentinin göstərişlərinə uyğun olaraq, artıq yeni təşəbbüslər həyata keçirilməkdədir. Buna misal olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Nardaran qəsəbəsində və Gəncədə keçirilmiş mini-əmək yarmarkalarını göstərmək olar ki, burada əhaliyə yüzlərlə konkret iş yeri təklif olunmuşdur. Həmin yarmarkalarda ailə başçısı olan qadınların (tənha anaların), ilk növbədə, işlə təmin edilməsi məsələsi diqqətdə saxlanılmalıdır.

Bəzi müraciətlərdə vətəndaşlar ali təhsilə malik olmalarına baxmayaraq, məşğulluq orqanlarına müraciət etdikdə, onlara ixtisaslarından kənar, o cümlədən, orta ixtisaslı mütəxəssislər və ya orta təhsilli şəxslərin işləməli olduqları vəzifələrin və iş yerlərinin təklif edildiyini, bununla razılaşmadıqda isə, işsiz statusunun verilməsindən imtina edildiyini bildirmişlər. Odur ki, Müvəkkil "Məşğulluq haqqında"

quqlarının etibarlı müdafiəsi məqsədilə Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli, 185 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların problemləri üzrə kompleks proqram"ın 5.4-cü bəndinin işləyən əlilliyi olan insanlara əlavə haqqın ödənilməsi mexanizminin yaradılması yolu ilə təkmilləşdirilməsi də məqsədəmüvafiqdir.

Müvəkkilin əmək hüquqlarının müdafiəsi istiqamətində həyata keçirdiyi tədbirlər sırasında maarifləndirmə işi, o cümlədən, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası ilə əməkdaşlıq da mühüm yer tutur. Aparatın əməkdaşları müxtəlif vaxtlarda dinləyicilər qarşısında əmək hüquqları ilə bağlı məruzələrlə çıxış etmişlər.

Sosial cəhətdən zəif əhali qruplarından olan vətəndaşların hüquqlarının müdafiəsi ötən dövrdə də dövlətin sosial siyasətində prioritet təşkil etmişdir. Pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədi ilə bütün növ əmək pensiyalarının sığorta hissəsinin və yaşayış minimumu məbləğlərinin, davamlı olaraq, artırılması böyük əhəmiyyət daşımışdır.

Azərbaycan Respublikasının hər bir növbəti il üçün dövlət büdcəsi layihəsinin müzakirələrində və onun formalaşması prosesində Müvəkkilin iştirakı, əhalinin müxtəlif qruplarının sosial problemlərinin həll edilməsi üzrə təkliflərinin nəzərə alınması, insan hüquqlarının təmin olunmasına və etibarlı müdafiəsinə xidmət etməkdədir. Müvəkkilin əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində irəli sürdüyü bir çox təkliflər, tədricən, öz həllini tapmaqdadır.

Müvəkkil əvvəlki illik məruzələrində yetim, kimsəsiz və valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsinin gücləndirilməsini, onların sosial qayğılarını üzərinə götürmək imkanlarına malik sosial-reabilitasiya mərkəzlərinin yaradılmasını, internat evlərində tərbiyə alan və müvafiq yaş həddinə çatdıqda, oranı tərk edən uşaqların yaşayış yeri ilə təmin edilməsini təklif etmişdir. Bu baxımdan, Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq qurumları nəzdində dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün "Məzun Evi" Sosial Müəssisəsinin, habelə, xüsusi qayğıya ehtiyacı olan uşaqların kompleks şəkildə tibbi-sosial reabilitasiyasının aparılması, onların cəmiyyətə inteqrasiyasının təmin edilməsi məqsədilə, Xüsusi Qayğıya Ehtiyacı Olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsinin yaradılması, həmçinin, evdə təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanun nümayəndələrinə uşaqların sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün müavinətin müəyyən edilməsi böyük əhəmiyyət daşıyır.

Sosial təminat hüququnun pozulması ilə bağlı daxil olmuş 1225 müraciətin araşdırılması və təmin edilməsi, aşkar edilmiş nöqsanların aradan qaldırılması və pozulmuş hüquqların bərpası istiqamətində bir sıra tədbirlər görülmüşdür. Şikayətlərdə təyin olunmuş pensiyanın düzgün hesablanmaması, o cümlədən, pensiya hesablanarkən, iş stajının müəyyən dövrünün nəzərə alınmaması, əmək pensiyasına əlavələrin hesablanmaması kimi hallar öz əksini tapmışdır ki, Müvəkkilin aidiyyəti üzrə müdaxiləsindən sonra məsələ öz həllini tapmışdır.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəsəfə doktoru***

səs

Son səhifə 2 noyabr



## Binəqədi rayonunda “Nəsimi dühası-650 il” adlı layihə çərçivəsində tədbir keçirilib




***Binəqədi rayon icra hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı və Binəqədi rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə keçirilən “Nəsimi dühası-650 il” adlı layihə çərçivəsində 83 nömrəli məktəb-liseydə növbəti təqdimat baş tutub. Tədbirdə çıxış edən 83 nömrəli məktəb-liseyin müəllimi Samirə Əjdərqızı İmadəddin Nəsiminin yaradıcılığı haqqında danışıb. Nəsiminin insana və sözə verdiyi yüksək dəyərdən bəhs edib.***

Tədbirdə çıxış edən 83 nömrəli məktəb-liseyin direktoru Almaz Bayramova təqdimatın hazırlanması və ərsəyə gəlməsi barədə məlumat verdi. Şagirdlərin iştirakı ilə tarixi və ədəbi şəxsiyyətin yaradıcılıqlarına nəzər salaraq, onun araşdırılması və təqdim edilməsinin əhəmiyyətini qeyd edib.

Tədbirdə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxış edərək bildirib ki, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimini orta dövrlərin zülmündən bu günümüzə gətiririk. Şair bizi, biz də şairi dinləyirik. Həyat yoluna nəzər salırıq, yaradıcılığını vərəqləyirik. Öyrənirik, təəssüflənirik, kədərlənirik və qürurlanırıq. İnsanı kamilləşməyə çağıran, ictimai bərabərsizliyə qarşı çıxış, zülmü, istismarı rədd edən humanist sənətkar bu gün də azad, demokratik, tolerant ölkəsində xoşbəxtdir və məmnundur. Bugünkü Azərbaycan gəncliyinin sələfi olan Nəsimi bayrağımıza işarə edərək, ona ucalıq və yenilməzlik arzulayır”.

Daha sonra tədbir bədii hissə ilə davam etdirilib. 83 nömrəli məktəb-lisey, 135 və 248 nömrəli tam orta məktəblərin birgə təşkilatçılığı ilə şagirdlərinin ifasında Nəsiminin yaradıcılığında yer alan və Nəsimiyə həsr olunmuş müxtəlif qəzəllər, musiqilər ifa edilib, kompozisiyalar və rəsm əsərləri nümayiş etdirilib. Səsləndirilən bütün qəzəllərdə və kompozisiyalarda Nəsiminin böyük söz ustası, mütəfəkkir, şəxsiyyət, təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası, hətta bəşəriyyət üçün nadir incilərdən olduğu bir daha təsdiqini tapır.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, “Nəsimi dühası-650 il” adlı layihədə Binəqədi rayonunun bütün tam orta məktəblərində İmadəddin Nəsiminin şəxsiyyətinə, yaradıcılığına və fəlsəfəsinə həsr olunmuş bir neçə nominasiya üzrə - musiqi, bədii qiraət və rəsm nümunələrinin nümayiş etdirilməsi nəzərdə tutulub.

***ZÜMRÜD BAYRAMOVA***

## ELAN

**“Atəşgah” sığorta şirkətinə aid olan 1 (bir) ədəd BA 977601 saylı icbari əmlak sığortası blankı itdiyi üçün etibarsız sayılır.**

# Nəsimi rayonunda “Qarabağ Azərbaycandır!” mövzusunda inşa yazı müsabiqəsi keçirilib




***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı tərəfindən rayon ərazisində yerləşən ali məktəblərdə - Azərbaycan Dövlət Tibb Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dillər Universiteti və Bakı Slavyan Universitetində təhsil alan gənclər arasında “Qarabağ Azərbaycandır!” mövzusunda inşa yazı müsabiqəsinə həsr olunan tədbir keçirildi. Tədbirlərdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirdi ki, rayon təşkilatı tərəfindən, davamlı olaraq, müxtəlif layihələr həyata keçirilir. Bu layihələrdən biri də rayon ərazisində yerləşən ali məktəblərdə təhsil alan gənclər arasında “Qarabağ Azərbaycandır!” mövzusunda inşa yazı müsabiqəsidir.***



Rayon təşkilatı sədri bu il oktyabrın 3-də Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun keçirdiyi ənənəvi tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin növbəti tarixi çıxışına nəzər salaraq, dövlət başçısının işğalçı və qondarma dövlət olan Ermənistanın baş naziri Paşinyanı və onun simasında erməni yalanını növbəti dəfə ifşa etdiyini bildirdi: “Azərbaycan ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilən bu çıxış bugünədək beynəlxalq və yerli mətbuatda rəğbətlə müzakirə edilir. Dövlətimizin başçısı həm ölkəmizdə keçirilən tədbirdə və görüşlərdə, həm də xarici səfərləri zamanı keçirilən görüşlərində və beynəlxalq təşkilatlarda çıxış edərkən, Azərbaycan həqiqətlərini qətiyyətlə səsləndirir. Ölkə rəhbərinin hər bir çıxışının bugünkü gənclərin formalaşmasında çox böyük önəmi var. Bu mənada, gənclərin Prezidentimizin fəaliyyətini diqqətlə izləmələri, Onun milli ruhlu və vətənpərvər çıxışlarını özlərinin yol xəritəsi hesab etməlidirlər”.



Müsabiqədə iştirak etmək üçün, qısa müddət ərzində, 3000-dən çox gənc müraciət edib. Onların arasında xarici tələbələr də var. Sözsüz ki, qardaş Türkiyədən olan gənclər daha çox üstünlük təşkil edir. Müsabiqənin nəticələri dekabrın sonuncu ongünlüyündə elan olunmaqla, qaliblər mükafatlandırılacaq.

Tədbirlərdə BSU-nun rektoru professor Nurlana Əliyeva, ADU-nun rektoru, akademik Kamal Abdullayev, rektorun ictimai məsələlər üzrə müşaviri Sərraf Hüseynov, ADNSU-nun prorektoru Ata Babayev, tələbələrdən Kəmalə Həsənova, Elnarə Cəfərzadə və başqaları çıxış edərək, “Qarabağ Azərbaycandır!” inşa yazı müsabiqəsinin əhəmiyyətindən danışdılar.

Sonra universitetin tələbələri arasında “Qarabağ Azərbaycandır!” mövzusunda inşa yazı müsabiqəsinə start verildi.

***Nəzakət ƏLƏDDİNQIZI***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**